ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELM VƏ TƏHSİLİN ƏSASLARI
# XIX BEYNƏLXALQ ELMİ KONFRANS
## ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XIX INTERNATIONAL SCIENTIFIC CONFERENCE
## SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal

Bakı, Azərbaycan
05 aprel 2026

# ELM VƏ TƏHSİLİN ƏSASLARI
# XIX BEYNƏLXALQ ELMİ KONFRANS
# ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XIX INTERNATIONAL SCIENTIFIC CONFERENCE
# SCIENTIFIC RESEARCH Special issue of the International Scientific Journal

**05 aprel 2026**

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 3104-4670**
**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© bek.tedqiqat@aem.az
© aem.az

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan

## Sədr müavinləri

**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan

## Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə

**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Mehriban İMANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Səbinə TANRIVERDİYEVA,** Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

**Chairman**

**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan

**Deputy chairmen**

**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan

**Executive secretary**

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**MEMBERS**

**Prof. Dr. Karim SHUKUROV,** ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician
Y.H.Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Rufat RUSTAMOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan

**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elnara MEHBALİYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA,** Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan

**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Sərdar Zeynal**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
https://orcid.org/0000-0002-5377-6035
serdarzeynalov@adpu.edu.az

## "Türkcə sərf-nəhv" dərsliyində zərf

***Açar sözlər:*** *zərf, növ, məqsəd, zaman, tərtib*
***Keywords:*** *adverb, type, purpose, tense, composition*

XX əsrin birinci rübündə Azərbaycan dili ilə bağlı yazılan ilk mükəmməl dərsliklərdən birincisi, belə demək mümkünsə, "Türkcə sərf-nəhv" dərsliyidir. Bu zaman Azərbaycan məktəblərində dərslik çatışmazlığını aradan qaldırmaq və günün tələblərinə cavab verəcək dərsliklərin hazırlanması diqqət mərkəzində dayanırdı. Bunu nəzərə alaraq, Azərbaycan SSR Xalq Maarif Komissarlığı orta məktəbdə ana dili tədrisinin vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə bir qrammatika dərsliyi yazdırmaq üçün komissiya təşkil edir. Komissiyanın tərkibinə o dövrün say-seçmə ziyalılarından sayılan İsmayıl Hikmət, Abdulla Şaiq, Seyid Mirqasımzadə, Cavad Axundzadə, Cabbar Əfəndizadə və Mustafa Tofiq daxil edilir. "Sərf komissiyası" adlanan müəlliflər qrupunun yazıb "Türkcə sərf-nəhv" adlandırdıqları 147 səhifədən ibarət bu dərslik 1924-cü ildə nəşr edilir.

Fehris (kitabın səhifələrini göstərən məlumat) bölməsində dərsliyin 112 bölmədən ibarət olduğu ayrı-ayrı başlıqlar altında

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

qeyd olunmuşdur. "Bir neçə söz" adlanan bölmədə müəlliflər tez bir zamanda yazılıb nəşr edilən kitab haqqında yazırlar ki, yazdıqları bu kitab bu sahədə ilk dərslik olduğundan müəyyən nöqsanlardan da xali deyildir. "Sərfin tərifi" (Hikmət və b., 1924, s. 7) adlanan birinci bölmədə sərf, dil, səslər, heca və ahəng haqqında məlumat verilir. "Tənqit" adlanan ikinci bölmədə isə durğu işarələri haqqında məlumat verilir və ayrılıqda hər biri izah edilir.

"Kəlmə" adlanan (Hikmət və b., 1924, s. 10) üçüncü bölmədə isə kəlmələr (bugünkü baxışla yanaşsaq, nitq hissələri) haqqında danışılır və qeyd olunur ki, "Kəlamın" (yəni cümlənin - S.Z.) cüzlərinə (hissələrinə - S.Z) kəlmə deyirlər. Türkcədə yeddi dürlü kəlmə (yəni nitq hissəsi - S.Z.) vardır: isim, sifət, zəkrir (əvəzlik - S.Z.), feil, zərf, nida, ədat (Hikmət və b., 1924, s. 10).

Dərsliyin yeddinci bölməsi (Hikmət və b., 1924, s. 14) "zərf" adlanır. Zərf haqqında yazılır: "zərf feilin və sifətin mənasını tamamlayan: zaman, məkan, hal, miqdar, səbəb və məqsəd göstərən kəlmədir" (Hikmət və b., 1924, s. 143). Bu abzasda zərfin mənaca altı növünün olduğu qeyd edilir. Düzdür, bu müxtəliflik dərslikdə məna növü kimi qeyd edilmir. Hər bir növ bu dərslikdə ümumi şəkildə kəlmə (söz-S.Z.) adlandırılır. Zərflərin əlaqələndirildiyi sözlər bugünkü dərsliklərdə sifətlərin əlaqələndiyi sözlərdən fərqlənsə də, onların fərqli xüsusiyyətləri bu dərsliklərdə qeyd olunmur. Bununla bağlı dərslikdə yazılır: Zərflər bir növ sifətdirlər. Sifətlər isimlərin başlarına gələrək təyin etdikləri kimi, zərflər də məsnəd (mənsəb, vəzifə - S.Z.) olan feilləri və sifətləri təyin edirlər: nə zaman, nerədə, nerəyə, nerədən, nasıl, nə qədər, nə üçün və ilaxır kimi suallara cavab olurlar (Hikmət və b., 1924, s. 143). Dərslikdə zərfin ilk növü zaman göstərən zərflər (yenə orada) adlanır. Bugünkü dərsliklərdən fərqli olaraq, bu dərslikdə zaman göstərən zərflər haqqında ilk olaraq ətraflı məlumat verilmir. Həm də zaman

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

göstərən zərflərin quruluşca üç yox, iki növü qeyd olunur, sabitlər və mürəkkəblər. Sabitlərlə bağlı yazılır: Sabitlər səhər, sabah, axşam, dün, şimdi, yarın, daima, həmişə, gec, erkən, əvvəl (Hikmət və b., 1924, s. 143). Biz burada sabit zərflərə aid verilən nümunələrlə tanış olduqda onların bəzilərinin dilimizdə öz işləkliyini itirdiyinin şahidi oluruq. Məsələn, dün, şimdi, yarın kimi sözlər müasir dilimizdə ya formasını dəyişərək başqa formada işlənir, ya da dilimizdən tamamilə çıxmışdır. Zaman zərflərinin quruluşca ikinci növü mürəkkəb zərflər adlanır. Bu növlərlə bağlı yazılır. Mürəkkəblər: bu gün, ertəsi gün, bundan əvvəl, bundan sonra, dün axşam, hər an, yarın, və s. (Hikmət və b., 1924, s. 143). Nümunələrdən görünür ki, bu nümunələrin içərisində bugünkü nümunələrlə müqayisədə fərqli xüsusiyyətlər ortaya çıxır. Görünür ki, bugünkü dərsliklərdə qoşmaların sırasına daxil olan əvvəl, sonra kimi sözlər qoşulduğu sözlərlə birlikdə zaman zərfləri sırasına daxil edilmişdir. Sonda isə zaman zərflərinin nə zaman, nə vaxt, suallarına cavab verdiyi qeyd edilir.

Dərslikdə zərfin mənaca ikinci növü zaman göstərən zərflər (Hikmət və b., 1924, s. 143) adlanır. Bununla bağlı yazılır: buraya, şuraya, uzaq, yaxın, ileri, geri, aşağı, yaxın, ötə, dışarı, məkan göstərən zərflər: nerede, nereden, nereye suallarına cavab olurlar. Dərslikdə zərflərin bu növünün də quruluşca növü haqqında heç bir məlumat verilmir. Zərfin dərsliklərdə qeyd olunan üçüncü növü hal göstərən zərflər (Hikmət və b., 1924, s. 144) adlanır. Bu növlə bağlı yazılır: gözəl-gözəl, rahat-rahat, birdən-birə, çabuğ, iyi, kötü, gülə-gülə, gülərək, mışıl-mışıl, dərhal, böylə, şöylə, yavaş, əksərən, yarın – yaren. Hal göstərən zərflər: nasıl sualına cavab olurlar. Kitabda hal göstərən zərflərlə bağlı iki qeyd də verilmişdir. Birinci qeyddə göstərilir ki, zərflər vəzifə olaraq feilləri və ya sifətləri tamamladıqları kimi vəzifə olaraq məsdərləri də mənalandırır. Bundan sonra çalışmaq birləşməsi nümunə göstərilir. İkinci qeyddə isə hal bildirən

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

zərflərdən danışılır və qeyd olunur ki, "Hal göstərən zərflərin bir qismi ismin mənasını tamamlarkən sifət, feilin mənasını tamamlarkən zərf olurlar."

Dərslikdə zərfin digər, dördüncü növü tərtib və miqdar göstərən zərflər adlanır. Bu növ zərflər haqqında qısaca olaraq yazılır: "Az, çox, nə qədər, bu qədər, qayət, birinci, beşinci kimi nümunələr zərf deyil". Dərsliklərdə nə qədər? sual əvəzlikləri, birinci, beşinci sözləri isə sayların sırasına daxil edilib.

Zərfin beşinci növü nəfy göstərən zərflər adı altında izah edilir. Nəfy: 1.inkar etmək; danmaq; 2.rədd (Ərəb və fars sözləri lüğəti, 1967). Zərfin bu məna növü haqqında heç bir əlavə məlumat verilmir. Bu növə aid yalnız üç nümunə verilmişdir: qətiyyən, əsla, heç.

Dərslikdə zərfin altıncı növü səbəb və məqsəd göstərən zərflər (Hikmət və b., 1924, s. 144) adlanır. Səbəb və məqsəd zərfləri ilə bağlı yazılır: feilin nə səbəb və nə məqsədlə yapıldığını (edildiyini) göstərir, nə səbəbə, nə məqsədlə suallarına cavab olur. Forma və məzmunda məlumat verilir: Əhməd şəhərə işləməyə getdi. Mən bəşəriyyətə fayda vermək üçün çalışıram. İnsan həmcinsinə yardım etmək üçün yaşamalıdır kimi cümlələr nümunə kimi verilir. Yüz ildən artıq bir müddət əvvəl nəşr edilməsinə baxmayaraq və bəzi yanaşmalar bugünki dərsliklərdəki yanaşmalardan fərqlənsə də, dərslik yanaşma və anlayışlarla bağlı verilən nümunələrin bitkinliyi və dərin məzmunu ilə bu gün də qiymətlidir. Məsələn, zərfin son növünə aid verilən cümlələrin ifadə etdiyi məzmuna diqqət yetirəndə (Mən bəşəriyyətə fayda vermək üçün çalışıyorum. İnsan həmcinsinə yardım etmək üçün yaşamalıdır?) onların nə qədər mütərəqqi fikirlərlə yükləndiyinin şahidi oluruq. Belə nəticəyə gəlmək olur ki, nəşr olunduqları tarixdən yüz ildən artıq vaxt ötməsinə baxmayaraq, bəzi dərsliklərdə özünü qabarıq surətdə göstərən mütərəqqi fikirlərdən

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

faydalanmalı və müasir dərsliklərin hazırlanmasında bu ənənələrdən yararlanmalıyıq!

## Ədəbiyyat

1. Hikmət, İ., Şaiq, A., Mirqasımzadə, S., Axundzadə, C., Əfəndizadə, C., və Tofiq, M. (1924). *Türkcə sərf-nəhv*. Azərnəşr.
2. *Ərəb və fars sözləri lüğəti*. (1967). Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı.

**Xəyyam İsmayılzadə**
Bakı Dövlət Universiteti
siyasi elmlər üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-1648-6549
ekonika22@yahoo.com

# ABŞ-ÇXR münasibətlərində Tibet məsələsi

***Açar sözlər:*** *ABŞ, ÇXR, BMT, Dalay Lama, Mədəni İnqilab, ikitərəfli münasibətlər*
***Keywords:*** *US, PRC, UN, Dalai Lama, Cultural Revolution, bilateral relations*

Rəsmi olaraq Tibet Muxtar Bölgəsi kimi tanınan Tibet, Çinin qərbində, dəniz səviyyəsindən təxminən 4900 metr yüksəklikdə yerləşən və "dünyanın damı" adlandırılan Tibet xalqının yaşadığı bir bölgədir. Bu bölgə vaxtaşırı ÇXR-ABŞ münasibətlərində gərginlik mənbəyinə çevrilərək onun statusu və gələcəyi ilə bağlı daim müzakirələr predmeti olmuşdur. Çin tarixçisi Rey Huanqa görə, Tibet, bir neçə əsr istisna olmaqla, tarix boyu əsasən, Çin suverenliyi altında mövcud olmuşdur. Məhz bu fikrə əsaslanaraq, 1950-ci ildə Çin Tibetə hücum etdi. Hətta işğaldan əvvəlki Tibetin statusu ilə bağlı fikirlər müxtəlifdir. Belə ki, Çin arxivlərində tapılan və bu yaxınlarda qəbul edilən bir baxış budur ki, Yuan sülaləsindən (1271–1368) etibarən Tibet təxminən 700 il Çin hökumətinin yurisdiksiyası altında olub (Gelber, 2010). Digər tərəfdən, Britaniya hesab edir ki, Çinin Tibet üzərindəki hakimiyyəti "suverenlik" anlayışının bir qədər qeyri-müəyyən bir formasıdır. 1912-ci ildə Çin Respublikası elan edildikdə, Sun Yat-sen Han, Mançu, Monqollar, Tibetlilər və digər xalqların Çin Respublikasının bərabərhüquqlu xalqları olduğunu elan etdi. Özünü Hui və digər etnik qrupları əhatə edən vahid respublika elan etdi və ilk

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

konstitusiyasında Tibetin Çinin bir hissəsi olduğu açıq şəkildə bildirildi. Hətta Millətçi hökumət (Kuomintang) 1927-ci ildə Nankində Milli Hökumət qurduqda və 1931-ci ildə parlament formalaşdıranda, 13-cü Dalay Lama iştirak etmək üçün parlamentə nümayəndələrini göndərdi və mərkəzi hökumət Tibetin daxili işlərini idarə etmək üçün Tibet İdarəsi açdı. Lakin bu dövrdə Britaniya, Hindistan və daha sonra ABŞ Çinin Tibet üzərindəki hakimiyyətini tanısalar da, Tibetlə münasibətlərində ona müstəqil dövlət kimi yanaşdılar. Kommunistlər 1949-cu ildə vətəndaş müharibəsində qalib gəldikdən və Xalq Cümhuriyyətinin elan edilməsindən sonra Tibet Çinin ayrılmaz hissəsi hesab edildi və onu işğal etmək üçün qoşunlar göndərildi. Tibetin işğalından sonra, 23 may 1951-ci ildə Tibetin suverenliyini və Çinin bir hissəsi kimi statusunu tanıyan "Tibetin dinc yolla azad edilməsi üçün on yeddi maddəlik saziş" imzalandı. Sazişi imzaladıqdan sonra Mao Tibeti sosializmə çevirmək üçün tədbirlər görməyə başladı, lakin bu, Tibetdə iğtişaşlara səbəb oldu. Üstəlik, ABŞ Tibet partizanlarını təlimləndirməyə və silahlandırmağa başladı. Dalay Lamaya növbəti altı il ərzində Tibetdə sosialist torpaq islahatları həyata keçirməyəcəyinə söz versə də, Mao 1959-cu il Tibet üsyanının qarşısını ala bilmədi (Sperling, 2009).

Çin hökuməti 1959-cu ildə olan üsyana qarşı silahlı müdaxiləyə başlayanda, 14-cü Dalay Lama Tibet tərəfdarları (təxminən 80.000 nəfər) ilə birlikdə Hindistana qaçdı. Hindistan Dalay Lamaya siyasi sığınacaq və daimi yaşayış yeri verdi. Hindistanın Dharamsala şəhərində yaşayan Dalay Lama Sazişin 17-ci maddəsindən imtina etdiyini elan etdi, Tibetin azadlığı və insan hüquqlarının qorunması uğrunda mübarizəyə başladı (Lal, 2007).

Dalay Lamanın Hindistana qaçması ilə Çin də öz növbəsində, 17 maddəlik Sazişi ləğv etdi. Onun minlərlə monastırı Tibetdəki siyasi mövcudluğu dayandırıldı. Elə həmin

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

il, 1959-cu ildə Çin hökuməti onda bir yığımını ləğv etdi və ənənəvi olaraq Çin dövlətinin bir hissəsi olan Tibetdəki üsyandan iki ay sonra "Tibet məsələsi haqqında" adlı kitab nəşr etdi. Bu kitabda tarixi sənədlərə görə Tibetin uzun tarixi boyunca heç vaxt müstəqil dövlət olmadığı və həmişə Çinin bir hissəsi olduğunu sübut etdiyi açıq şəkildə iddia edildi. Buna cavab olaraq, Dalay Lama BMT Baş Katibinə məktub göndərərək Tibetin 1950-ci ildə Çin işğalından əvvəl müstəqil bir dövlət olduğunu iddia etdi. O, 13-cü Dalay Lamanın 1912-ci ildə müstəqillik elan etdiyi zaman Çin hökumətinin müdaxilə etmədiyini bildirdi (Bajoria, 2015).

1966-cı ildə Çində başlayan Mədəni İnqilab Tibetə ciddi təsir göstərdi. Tibetdəki bütün dini fəaliyyət qadağan edildi, bütün monastır sistemi ləğv edildi və etnik azlıqların mədəniyyətini məhv etmək qarşıya qoyuldu. Bir müddətdən sonra, 1978-ci ildə Den Syaopinin islahatları ilə Tibetdə fərqli bir siyasət həyata keçirildi. Tibetin inkişafı üçün infrastruktur yaradıldı, din və mədəniyyətin dirçəlişi təşviq edildi. Lakin 1987-ci ildə başlayan müstəqillik etirazları 1989-cu ildə hərbi vəziyyətin elan edilməsinə, din və mədəni azadlıqlarla bağlı siyasətin sərtləşdirilməsinə səbəb oldu (Rabgey & Sharlho, 2004).

Çin hökuməti Tibetə qarşı sərt siyasəti ilə yanaşı, müxtəlif etnik qruplardan çinlilərin Tibetə köçünü təmin edərək assimilyasiya siyasətini həyata keçirməyə başladı. 1994-cü ildə Tibet üzrə Üçüncü Milli İş Forumunda o zamankı ÇXR lideri Jiang Zemin Tibetə daha çox Han miqrasiyasını qanuniləşdirərək bəyan etdi ki, əsas məqsəd Tibetin sabitliyini və inkişafını təmin etmək, eyni zamanda, ənənəvi Tibet mədəniyyətini qorumaq və digər mədəniyyətləri assimilyasiya etmək Tibetdə yeni sosialist mədəniyyətinin inkişafına töhfə verəcəkdir. Bu proses də zaman-zaman Tibetin hərtərəfli inkişafına gətirib çıxaracaqdır.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Müasir dünyada soyuq müharibə illərindən fərqli olaraq, Amerika Birləşmiş Ştatları və Çin Xalq Respublikası arasındakı münasibətlərdə davamlı dinamikanın olmasını qeyd etməklə bərabər, onlar araşında həm regional, həm də geostrateji, geoiqtisadi rəqabətin formalaşması xüsusilə nəzərəçarpandır. Amma əsas məsələ dünya düzəninin yenidən qurulması, dövlətlərə və beynəlxalq təşkilatlara qarşılıqlı hörmət bəsləməsi, bütün bunların fonunda aralarında mövcud olan bəzi problemlərin aradan qaldırılması hər iki dövlətin maraq dairəsindədir. Şübhəsiz ki, bu da ABŞ və ÇXR arasında qarşılıqlı faydalı siyasi-iqtisadi əməkdaşlıq istiqamətində dünya siyasətinin əsas aparıcı məsələlərindən biri kimi xarakterizə olunmasına şərait yaradır.

## Ədəbiyyat

1. Bajoria, J. (2008). *The Question of Tibet*. Council of Foreign Relations.
2. Gelber, G.G. (2010). *MÖ 1100'den Günümüze, Çin ve Dünya – Ejder ve Yabancı Decallar*.
3. Lal, R. (2007). *China's relations with South Asia*. Beijing's Strategy for the Twenty-First Century.
4. Rabgey, T., & Sharlho, T. (2004). Sino-Tibetan Dialogue in the Post-Mao Era: Lessons and Prospects. *Policy Studies 12*, 18. https://faculty.washington.edu/stevehar/Rabgey.pdf.
5. Sperling, E. (2009). *Tibet and China: The Interpretation of History Since 1950*. China Perspectives.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Aygün İsmayılova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1214-600X
aygunismayilova2015@outlook.com

# Rəqəmsallaşma şəraitində milli dillərin normativ transformasiyası: Azərbaycan və alman dillərinin müqayisəli təhlili

***Açar sözlər:*** *rəqəmsallaşma, dil siyasəti, milli kimlik, alman dili, Azərbaycan dili, rəqəmsal dil mühiti*
***Keywords:*** *digitalization, language policy, national identity, German language, Azerbaijani language, digital language environment*

Məqalədə rəqəmsallaşma və qloballaşma şəraitində Azərbaycan və alman dillərinin qorunması və yenilənməsi məsələləri türkoloji elmi irs kontekstində təhlil edilir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində dilin funksional yükü genişlənmiş, normativ struktura yeni çağırışlar yaranmışdır. Tədqiqatda dilin sənədləşdirilməsi və normativləşdirilməsi prinsipləri müasir rəqəmsal mühitdə aktual metodoloji yanaşma kimi əsaslandırılır. Alman türkoloji məktəbinin elmi təcrübəsi fonunda elektron korpusların, rəqəmsal lüğətlərin və terminoloji bazaların yaradılmasının nəzəri əsasları araşdırılır. Nəticə olaraq müəyyən edilir ki, türkoloji metodologiya ilə müasir texnologiyaların inteqrasiyası milli dillərin rəqəmsal mühitdə davamlı inkişafı üçün kompleks model formalaşdırmağa imkan verir.

XXI əsr informasiya cəmiyyətinin formalaşması ilə xarakterizə olunur. Rəqəmsal texnologiyaların intensiv inkişafı

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də bilik ötürmə, mədəni yaddaşın qorunması və identiklik formalaşdırma aləti kimi rolunu daha da gücləndirmişdir.

Rəqəmsallaşma prosesləri dillərin strukturuna, leksik fonduna və normativ sisteminə birbaşa təsir göstərir. Sosial media platformaları, avtomatlaşdırılmış tərcümə sistemləri və süni intellekt əsaslı tətbiqlər dil istifadəsinin dinamikasını dəyişir. Bu şəraitdə milli dillərin qorunması məsələsi təkcə texnoloji deyil, həm də mədəni və elmi problem kimi aktuallaşır.

Azərbaycan və alman dilləri fərqli tarixi və sosial kontekstdə inkişaf etsə də, hər iki dil rəqəmsal transformasiyanın yaratdığı çağırışlarla üz-üzədir. Bu baxımdan türkoloji irsin elmi-metodoloji prinsipləri müasir dövrdə aktual tədqiqat istiqaməti kimi çıxış edir.

Tezisdə müqayisəli-təhlil metodu, tarixi-linqvistik yanaşma və normativ dilçilik prinsipləri tətbiq edilmişdir. Alman və Azərbaycan dillərinin rəqəmsal inkişaf modelləri müqayisəli şəkildə araşdırılmış, türkoloji məktəbin metodoloji irsi kontekstində qiymətləndirilmişdir. Mənbələrin analizi zamanı elmi ədəbiyyatın sistemli təhlili aparılmışdır.

*Rəqəmsal dövr və dillərin normativ inkişafı.* Qloballaşma və rəqəmsallaşma dillərin funksional imkanlarını genişləndirməklə yanaşı, normativ sistemə də təsir göstərir. Xüsusilə sosial şəbəkələrdə qeyri-rəsmi ünsiyyət formalarının üstünlük təşkil etməsi qrammatik strukturların sadələşdirilməsinə və orfoqrafik normaların pozulmasına səbəb olur.

Təbii dil emalı sistemlərinin inkişafı bu prosesin digər aspektini təşkil edir. Məsələn, avtomatlaşdırılmış tərcümə platformalarının kontekstual modellərə keçidi dil resurslarının sistemləşdirilməsinin vacibliyini artırmışdır (Allahverdiyeva, 2025, s. 158).

Alman dilində rəqəmsal siyasət dövlət və elmi institutlar tərəfindən koordinasiyalı şəkildə həyata keçirilir. Alman dilinin

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

internet məkanında güclü mövqeyi statistik göstəricilərlə də təsdiqlənir (Burchardt & Egg, 2024, s. 12).

*Rəqəmsal dövrdə Azərbaycan dilinin qorunması və yenilənməsi.* Azərbaycan dili rəqəmsal mühitdə geniş istifadə olunsa da, normativ sabitlik baxımından müəyyən problemlərlə qarşılaşır. Sosial mediada qrammatik və leksik qeyri-sabitlik, alınma terminlərin nəzarətsiz artımı dil sisteminin daxili balansına təsir göstərir (Həsənli, 2025, s. 3).

Digər mühüm məsələ elektron korpus və terminoloji bazaların yetərli səviyyədə inkişaf etməməsidir (Alışov, 2025, s. 45). Rəqəmsal resursların zəifliyi dilin süni intellekt və TDE sistemlərində effektiv təmsil olunmasına mane olur. Bununla yanaşı, dövlət səviyyəsində qəbul edilmiş normativ sənədlər və rəqəmsal layihələr dilin qorunması istiqamətində mühüm addımlar kimi qiymətləndirilə bilər.

*Alman dilçilik və türkoloji ənənədə dilin sənədləşdirilməsi.* Alman dilçilik məktəbi normativ sistemin qorunmasına xüsusi əhəmiyyət vermişdir (Hoffmann, 2018, s. 391). Lüğətçilik və korpus dilçiliyi sahəsində formalaşmış elmi ənənə alman dilinin rəqəmsal mühitdə sabit inkişafına zəmin yaratmışdır.

Wilhelm Radloff, Carl Brockelmann və Gerhard Doerfer kimi alimlərin türk dillərinin sistemli təsnifatı sahəsində apardıqları tədqiqatlar sənədləşdirmə prinsipinin elmi əsaslarını formalaşdırmışdır. Bu metodoloji baza müasir elektron korpus və rəqəmsal lüğət layihələrinin nəzəri təməlini təşkil edir. Türkoloji irs dil faktlarının toplanması, sistemləşdirilməsi və normativləşdirilməsi baxımından bu gün də aktuallığını qoruyur.

Tədqiqat göstərir ki, rəqəmsal dövrdə milli dillərin qorunması yalnız texnoloji vasitələrlə deyil, elmi-metodoloji əsaslarla mümkündür. Azərbaycan dili üçün türkoloji irsə əsaslanan sistemli yanaşma və alman dil siyasətinin təcrübəsi inteqrativ model kimi çıxış edə bilər. Elektron korpusların

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

yaradılması, terminoloji bazaların sistemləşdirilməsi və dövlət dəstəyi ilə həyata keçirilən rəqəmsal layihələr milli dillərin davamlı inkişafını təmin edən əsas mexanizmlərdir.

Beləliklə, türkoloji metodologiya ilə müasir texnologiyaların vəhdəti milli dillərin rəqəmsal mühitdə qorunması və yenilənməsi üçün strateji istiqamət kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat

1. Allahverdiyeva, Ü. (2025). Azərbaycan dilinin rəqəmsal mühitdə inkişaf perspektivləri. *Elmi İş. Beynəlxalq Elmi Jurnal*, *19*, 157–160.
2. Alışov, N. (2025). İntellektual sistemlərdə təbii dil emalı və avtomatlaşdırılmış yanaşmalar. *II Respublika Elmi Konfransının materialları*, 45–52.
3. Burchardt, A., & Egg, M. (2024). *Die deutsche Sprache im Digitalen Zeitalter*. European Language Equality Project.
4. Həsənli, Ş. (2025). *Rəqəmsal dünyada Azərbaycan dili: Problemlər və perspektivlər*. Elm.
5. Hoffmann, L. (Hrsg.). (2018). *Sprachwissenschaft: Ein Reader* (4. Aufl.). De Gruyter.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Malahat Abdullayeva**
Azerbaijan State Pedagogical University
PhD in Pedagogy
https://orcid.org/0000-0002-2228-1224
azeriteacher@yahoo.com

# The Role, Objectives, and Tasks of Informatics in the Modern Education System

***Keywords:*** *Informatics education, digital competencies, algorithmic thinking, digital literacy, educational technologies*
***Açar sözlər:*** *informatika təhsili, rəqəmsal kompetensiyalar, alqoritmik təfəkkür, rəqəmsal savadlılıq, təhsil texnologiyaları*

Modern education systems develop on the basis of the requirements of the information and knowledge society. Reports of international organizations indicate that digital transformation is fundamentally changing the content of education and outcome-oriented approaches (UNESCO, 2018; OECD, 2019). In this context, the Informatics subject is no longer limited to the transmission of technical knowledge; it is becoming a strategic discipline that shapes students as individuals who think, analyze, and create within the digital environment.

The formation of digital competences is one of the key priorities of modern education. Within the DigComp 2.2 framework developed by the European Commission, digital competencies encompass areas such as information literacy, communication, digital content creation, safety, and problem-solving (European Commission, 2022). The systematic development of these competencies necessitates a purposeful and staged teaching of Informatics in general education schools.

At the same time, the development of computational and algorithmic thinking in students holds a special place among

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

21st-century skills. The standards of the International Society for Technology in Education emphasize that students should not only be users of digital technologies but also creative implementers of them (ISTE, 2016). In this regard, programming, modeling, and project-based activities further enhance the strategic importance of Informatics.

In addition, the rapid development of digital technologies and their systematic integration into educational environments have made issues of information security and digital ethical behavior particularly relevant priorities. UNESCO reports note that education systems should shape students as safe and responsible digital citizens (UNESCO, 2023). Informatics plays a crucial role in fulfilling this task.

Thus, Informatics holds a strategic position in the modern education system: it prepares students for the requirements of the digital economy, develops innovative thinking and problem-solving skills, and transforms them into active and responsible participants in the information society.

In the modern educational paradigm, the Informatics subject aims to develop a new mode of thinking in students called Computational Thinking, in line with the demands of the digital society.

*The main directions of the strategic role of Informatics. Interdisciplinary connections (STEM/STEAM):* Informatics integrates fields such as mathematics, physics, and engineering into a unified platform. For example, simulating physical processes through software allows students to observe theoretical concepts in practice.

*Human capital as an economic resource:* According to UNESCO framework documents on ICT in education, more than 90% of professions in the modern labor market require digital skills. In this regard, Informatics lessons are considered a

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

foundation that ensures a country's future economic competitiveness.

*Algorithmic literacy:* This is the ability of a student to break complex problems into smaller parts, identify patterns, and construct a solution (algorithm). This skill is applicable not only in computing but also in real-life decision-making processes.

*The importance of Informatics in the digital society. Digital citizenship:* The Informatics subject teaches students ethical behavior in the digital world (netiquette), copyright rules, and cybersecurity principles. This is essential for distinguishing "fake" information in the information space and protecting personal data.

*Innovative creativity:* Modern education systems aim to transform students from passive consumers of information into active content creators. Learning programming languages (such as Python or Scratch) enables students to develop their own startups or digital projects.

*Application in the national education system:* The "Digital Skills" project implemented in Azerbaijan's education system is a clear example of this strategic role. The project methodology shows that Informatics has moved beyond the traditional "Word/Excel" framework and has evolved into a module based on logic, algorithms, and artificial intelligence. This approach represents one of the most effective ways to prepare students for the high-tech environment of the future.

In modern school education, the primary goal of Informatics is to develop individuals who are capable of functioning independently in a technological environment and who possess creative and critical thinking skills (UNESCO, 2018). In order to achieve these strategic objectives, the formation of the following four fundamental competencies in students is considered essential:

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

*Digital Literacy:* Digital literacy is a fundamental skill required for living and functioning in an information society. It goes beyond basic computer use and includes the ability to understand, evaluate, and create digital content (UNESCO, 2018).

*Algorithmic and Logical Thinking:* This competency forms the core of Informatics and enables students to identify cause-and-effect relationships, break down complex problems into manageable steps, and design structured solutions. Algorithmic thinking involves planning a sequence of steps to accomplish specific tasks (Wing, 2006).

*Problem-Solving Skills:* In Informatics classes, students learn to identify and eliminate technical and logical errors (debugging) through programming. This process fosters resilience, reduces fear of making mistakes, and develops the ability to optimize solutions (Wing, 2006).

*Information Culture and Digital Ethics:* This aspect of Informatics education focuses on developing responsible, legal, and ethical behavior in the digital environment. It encompasses the principles of digital citizenship both in virtual spaces and in real-life contexts where technology plays a role (UNESCO, 2018).

The objectives of Informatics are determined in accordance with national education standards and the demands of the modern digital world. The effective implementation of these objectives requires specific methodological approaches within the school context. The main objectives of Informatics can be classified as follows:

Mastery of information processes: Teaching students the theoretical and practical principles of information collection, storage, transmission, and processing.

Development of algorithmic literacy. Enabling students to design effective sequences of steps for solving complex

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

problems and to implement these algorithms using programming languages (e.g., Python) (Wing, 2006).

Proficiency in technological tools: Developing students' ability to use modern software, cloud technologies, and artificial intelligence tools for educational purposes and self-development.

Modeling skills: Enhancing students' ability to construct computer-based models of real objects and processes in order to analyze their properties (Wing, 2006).

Methodological features of teaching Informatics in schools. Modern Informatics methodology emphasizes a shift from a "teacher-centered" model to a "student-centered" and "activity-based" approach:

- *Project-Based Learning (PBL)*: Students do not merely learn theory; they develop digital products (such as games, websites, or mobile applications) that address specific problems. This ensures the connection between knowledge and real-life application.
- *Gamification:* Especially in primary and middle grades, complex programming concepts are taught through game-based elements (e.g., Scratch, Minecraft Education), which enhances students' interest and motivation.
- *Computer Science Unplugged*: One of the key features of this methodology is teaching algorithmic thinking without computers, through logical games and activities. This approach emphasizes that technology is merely a tool, while the core lies in human thinking (Bell et al., 2009).
- *Flipped Classroom*: Students study theoretical material (such as video lessons) at home, while class time is devoted entirely to practical activities, including coding, laboratory work, and discussions.

In the school context, teaching Informatics is not limited to the transmission of knowledge; it also aims to teach students

how to learn and to develop them as individuals who can adapt flexibly to technological changes (UNESCO, 2018).

## References

1. Bell, T., Alexander, J., Freeman, I., & Grimley, M. (2009). Computer Science Unplugged: school students doing real computing without computers. *The New Zealand Journal of Applied Computing and Information Technology, 13*(1).
2. Ministry of Education of the Republic of Azerbaijan. (2020). *State standards and programs (curriculum) of general education*.
3. OECD. (2019). *OECD Future of Education and Skills 2030: OECD Learning Compass 2030*. OECD Publishing.
4. European Commission. (2022). *DigComp 2.2: The Digital Competence Framework for Citizens*. Publications Office of the European Union.
5. International Society for Technology in Education. (2016). *ISTE Standards for Students*. VA: ISTE.
6. UNESCO. (2023). *Global Education Monitoring Report: Technology in Education – A Tool on Whose Terms?* UNESCO.
7. UNESCO. (2018). *ICT Competency Framework for Teachers*. United Nations Educational, Scientific and Cultural Organization.
8. Wing, J.M. (2006). Computational thinking. *Communications of the ACM, 49*(3), 33–35.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Arzu Abdullayeva**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0006-7835-7394
arzu.abdullayeva@sport.edu.az

# İngilis dili dərslərində inklüziv təhsilin təşkili

***Açar sözlər***: *inklüziv təhsil, ingilis dili tədrisi, diferensiallaşdırılmış təlim, fərdi yanaşma, sosial inteqrasiya, xüsusi təhsil ehtiyacları, bərabər imkanlar*

***Keywords:*** *inclusive education, English language teaching, differentiated learning, individual approach, social integration, special educational needs, equal opportunities*

İngilis dili dərslərində inklüziv təhsilin təşkili məsələləri son zamanların aktual mövzusuna çevrilmişdir. Müasir təhsil sistemində bütün şagirdlər üçün bərabər imkanların yaradılması prioritet istiqamətlərdən biri kimi təqdim olunur. Tədqiqatlarda fərdi yanaşma, diferensiallaşdırılmış təlim, uyğunlaşdırılmış tapşırıqlar və psixoloji dəstək mexanizmlərinin rolu təhlil edilir. Eyni zamanda, inklüziv mühitdə kommunikativ bacarıqların inkişaf etdirilməsi və müəllimin peşəkar kompetensiyalarının əhəmiyyəti vurğulanır. Nəticə olaraq müəyyən edilir ki, düzgün təşkil olunmuş inklüziv dil tədrisi şagirdlərin sosial inteqrasiyasına və akademik nailiyyətlərinə müsbət təsir göstərir.

Müasir dövrdə SEN-li şagirdlər getdikcə demək olar ki, hər sinif otağının bir hissəsinə çevrilirlər; lakin bir çox çətinliklər var. Görünür, SEN şagirdləri və onların öyrənmə ehtiyacları və öyrənmə üslubları pis təlim şəraiti, müəllimlərin vaxt çatışmazlığı və ya xüsusi təlim yolu ilə əldə edilməli olan bilik çatışmazlığı səbəbindən daha çox nəzərə alınmır (Kudek Mirošević, 2007; Padurean, 2014; Vican, 2013). Bundan əlavə,

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

bəzi tədqiqatlar göstərir ki, SEN şagirdlərinə müəllimlərin mənfi münasibətləri səbəbindən kifayət qədər diqqət yetirilmir və buna görə də məktəb proqramlarına kifayət qədər daxil edilmir (Bishaw & Javaprada, 2012; Vican, 2013). SEN şagirdlərinin təhsil aldığı EFL sinif otağında ortaya çıxan əsas problemlər bunlardır: müəllim hazırlığının və bu şagirdlərlə işləmək üçün biliklərin olmaması, müəllimlərin münasibətləri, eləcə də qeyri-kafi tədris planları və şagirdlərin qabiliyyətlərini laqeyd qoyan tədris metodları (Bishaw & Javaprada, 2012). Müəllim və şagirdin münasibəti təlim uğurunda mühüm rol oynasa da, xüsusən də EFL təliminə SEN tələbələrinin daxil edilməsi ilə bağlı az sayda tədqiqat aparılmışdır.

Sözsüz ki, ana dilindən başqa bir dil bilməyin faydasına əlavə olaraq, SEN-li tələbələr üçün ingilis dili öyrənməyin faydaları çoxdur. İstənilən xarici dili öyrənmək SEN-li tələbələrə sinif yoldaşları ilə əməkdaşlıq, dinləmə və oxu bacarıqlarının təkmilləşdirilməsi kimi faydalı bacarıqların inkişafına, özlərini necə ifadə etməyi öyrənmələrinə və ya sonda sadəcə yaradıcılıqları üzərində işləmələrinə kömək edə bilər. Avropa Komissiyasının (2005) qənaətinə gəldiyi kimi, sosial və şəxsi inkişaf xarici dil öyrənməklə əldə edilə bilən məqsədlərdir və uğur ünsiyyət bacarıqlarından kənara çıxır. Bundan əlavə, bir dil öyrənməyin səbəbi yalnız dili həqiqətən mənimsəmək üçün deyil, həm də şəxsi inkişaf üçün bir vasitə kimi xidmət edə bilər (McColl, 2005-də sitat gətirildiyi kimi).

Müəllimlər inklüziv sinifdə ingilis dilinin tədrisinin həqiqətən təsirli olmadığını iddia edirdilər. Onlar düşünürdülər ki, adi şagirdlər bəzən SEN şagirdlərinin intizamsızlığından təsirlənirlər. Onlar anlayışları anlamaqda çətinlik çəkirdilər. Beləliklə, dərsin bir neçə dəfə təkrarlanması lazım olduğundan tədris planı tam şəkildə yerinə yetirilmir. Digər tərəfdən, SEN kateqoriyasına aid olan bəzi şagirdlər ruhdan düşdülər. Onlar özünəinamlarını itirdilər. Bu, onların ayrı-seçkiliyə məruz

qalmaları ilə bağlı idi. Beləliklə, bu, özünəinamın aşağı düşməsinə və tənhalığa səbəb oldu (Bullock, 1992). Bu mənfi qarşılıqlı təsirlər "məktəbə dair daha az əlverişsiz qavrayışlara, məktəbdən yayınma səviyyəsinin yüksəlməsinə və məktəbdəki fəaliyyətin aşağı səviyyələrinə" səbəb ola bilər (Kemple, 1991, s. 48). Belə bir nəticəyə gəlmək olar ki, SEN şagirdlərin cəmiyyətdə qəbulu zəifdir. Onlar digər şagirdlər kimi cəmiyyətdə sevilməyə və qayğıya layiqdirlər. Lakin, təcrid onların cəmiyyətdə böyümək, öyrənmək və inkişaf etmək imkanlarını azaltdı. Onlar yerli məktəbə getməkdən məhrumdurlar ki, bu da "bütün şagirdlərin cəmiyyətə daxil olmasını təmin etməyin əsas yoludur" (Bricker, 1995).

İnklüziv sinif otaqları müxtəlif mənşəli, qabiliyyətli və öyrənmə üslublu şagirdlərin yaşadığı müxtəlif mühitlərdir. TEFL müəllimi olaraq, hər bir şagirdin fərdi ehtiyaclarını anlamaq vacibdir. Bəzi şagirdlərdə öyrənmə əlilliyi ola bilər, digərləri isə ingilis dili öyrənənlər (ELL) və ya istedadlı şagirdlər ola bilər. Müxtəlif öyrənmə üslubları və bacarıqları ilə tanış olmaqla, tədris strategiyalarınızı sinifdəki bütün şagirdlərin ehtiyaclarını ödəmək üçün daha yaxşı uyğunlaşdıra bilər.

İnklüziv sinifdə ingilis dilini effektiv şəkildə öyrətmək üçün tədris strategiyalarınızı şagirdlərinizin müxtəlif ehtiyaclarını ödəmək üçün uyğunlaşdırmaq vacibdir. Fərqli təlim bütün şagirdlərin öz səviyyələrində tədris proqramına çıxışının təmin edilməsində əsas rol oynayır. Bu, əyani vəsaitlər, praktik fəaliyyətlər, qrup işi və texnologiya kimi müxtəlif tədris metodlarından istifadəni əhatə edə bilər. Təqdimat, cəlb olunma və ifadənin çoxsaylı vasitələrinin təmin edilməsi bütün şagirdlərin dil öyrənmə səyahətlərində uğur qazanmasına kömək edə bilər.

İnklüziv sinif otaqları hər bir şagirdin özünü dəyərli və hörmətli hiss etdiyi müsbət və dəstəkləyici bir təlim mühiti ilə inkişaf edir. TEFL müəllimi olaraq, şagirdləriniz arasında

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

empatiya, anlaşma və əməkdaşlığı təşviq etməklə inklüzivliyi inkişaf etdirə bilərsiniz. Həmyaşıdlarla qarşılıqlı əlaqəni, qrup işini və layihə əsaslı təlimi təşviq etmək sinifdə birlik hissi yaratmağa kömək edə bilər. Bundan əlavə, inklüzivliyi və müxtəlifliyə hörməti təşviq edən sinif qaydaları və rutinlərinin tətbiqi hamı üçün təhlükəsiz və qonaqpərvər bir təlim mühitinə töhfə verə bilər.

Sinifinizdə inklüziv təhsili dəstəkləmək üçün həmkarlarınız və valideynlərlə əməkdaşlıq vacibdir. Xüsusi təhsil müəllimləri, dil mütəxəssisləri və digər dəstək heyəti ilə işləmək şagirdlərinizin müxtəlif ehtiyaclarını ödəməyə kömək etmək üçün dəyərli məlumatlar və resurslar təqdim edə bilər. Bundan əlavə, valideynlər və qəyyumlarla açıq ünsiyyətin saxlanılması həm sinifdə, həm də sinifdən kənarda şagirdlər üçün güclü dəstək sisteminin yaradılmasına kömək edə bilər. Bir komanda olaraq birlikdə çalışaraq, bütün şagirdlərin dil öyrənmə səyahətlərində uğur qazanmaq üçün lazımi dəstəyi və şəraiti almasını təmin edə bilərsiniz.

## Ədəbiyyat

1. Bishaw, A., & Javaprada, S. (2012). Inclusive education and EFL classroom challenges. *Journal of Educational Research, 5*(2), 45–53.
2. Bricker, D. (1995). The Challenge of Inclusion. *Journal of Early Intervention, 19*(3), 179–194.
3. Bullock, A. (1992). *The Bullock report: A language for life*. Her Majesty's Stationery Office.
4. European Commission. (2005). *Special Educational Needs in Europe: The Teaching and Learning of Languages*. Author.
5. Kemple, J. (1991). Social relationships and school adjustment. *Educational Psychologist, 26*(3–4), 35–50.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

6. Kudek Mirošević, J. (2007). Inclusive education in the classroom: Teacher perspectives. *Croatian Journal of Education, 9*(1), 45–60.
7. McColl, H. (2005). *Foreign language learning and inclusion*. Association for Language Learning.
8. Padurean, A. (2014). Teaching English to children with special educational needs. *Procedia – Social and Behavioral Sciences, 142*, 340–345.
9. Vican, D. (2013). Teachers' attitudes toward inclusive education. *Journal of Education and Practice, 4*(12), 15–22.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 32-37
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 32-37
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Fidan Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0002-4935-0645
fa.mammadova.adpu.edu.az

# Dilin dövlətçilik ideologiyasındakı rolu və tarixi davamlılıq fenomeni

***Açar sozlər:*** *ana dili, dövlət, xalq, milli kimlik, ideologiya*
***Keywords:*** *native language, state, people, national identity, ideology*

Dil hər bir xalqın milli kimliyinin, tarixi yaddaşının və mədəni irsinin əsas daşıyıcısı olmaqla yanaşı, dövlətçilik ideologiyasının formalaşmasında aparıcı konseptual sütunlardan biri kimi çıxış edir. Dövlətçilik ideologiyası milli ideyanın, suverenlik anlayışının və siyasi birlik şüurunun formalaşmasını təmin edən ideoloji sistem kimi dil üzərində qurulur. Bu baxımdan dil yalnız kommunikasiya vasitəsi deyil, eyni zamanda, milli ideyanın semantik məkanı və ideoloji diskursun əsas platformasıdır. Azərbaycan Respublikasının dövlət rəhbəri, hörmətli Prezidentin dil haqqında vurğuladığı əsas mesaj bu idi ki, məhz ana dili tarix boyu xalqı millət kimi saxlayan, onu assimilyasiya və parçalanma təhlükəsindən qoruyan fundamental faktor olmuşdur. Müxtəlif tarixi mərhələlərdə siyasi təzyiqlər, müstəmləkəçilik siyasətləri və ideoloji hegemoniyalar şəraitində belə Azərbaycan dili milli varlığın qorunmasında aparıcı rol oynamışdır. Bu fakt dilin yalnız mədəni fenomen deyil, milli müqavimət və davamlılıq mexanizmi kimi çıxış etdiyini göstərir.

Azərbaycan dili milli kimliyin və milli mənsubiyyətin əsas sütunlarından biridir. Möhtərəm ölkə rəhbəri, cənab ali baş komandan İlham Əliyevin vurğuladığı kimi, dil yalnız ünsiyyət

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

vasitəsi deyil, eyni zamanda, xalqın mədəni və tarixi varlığını qoruyan, dövlətçilik ideologiyasının formalaşmasında aparıcı rol oynayan əsas institutdur. Son on il ərzində bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilsə də, mövcud vəziyyət hələ tam qaneedici deyil. Xüsusi diqqət çəkən məqam Azərbaycan dilinin tarixi davamlılığıdır.

Dilin əsrlər boyu qorunması və müasir dövrdə ulu babalarımızın danışdığı dil ilə mahiyyət etibarilə yaxınlığını saxlaması xalqın mədəni və tarixi bütövlüyünün göstəricisi kimi qiymətləndirilir. Bu fenomen təsadüfi linqvistik proses kimi deyil, kollektiv yaddaşın, milli iradənin və sosial-mədəni varisliyin nəticəsi kimi şərh edilməlidir. Dilin struktur və leksik əsaslarının qorunması xalqın öz tarixi köklərinə bağlılığını və milli identiklik şüurunun güclülüyünü nümayiş etdirir. Dilin qorunması heç vaxt spontan və öz-özünə baş verən hadisə olmamışdır.

Əksinə, müstəmləkəçilik və assimilyasiya siyasətləri şəraitində ana dilinə sədaqət, onun nəsildən-nəslə ötürülməsi və gündəlik kommunikasiya mühitində yaşadılması xalqın daxili müqavimət mexanizmi kimi çıxış etmişdir. Bu, dilin sosial institut kimi yalnız mədəni deyil, həm də siyasi və ideoloji funksiyalar yerinə yetirdiyini sübut edir. Ana dilinin qorunması milli identikliyin və milli ideyanın davamlılığını təmin edən əsas sosial mexanizmlərdən biri olmuşdur.

Müasir dövrdə Azərbaycan dili yalnız milli dəyərlərin, mədəni irsin və tarixi biliklərin nəsildən-nəslə ötürülməsi vasitəsi kimi deyil, həm də informasiya mühiti və media məkanında ədəbi dilin funksional vəzifələrinin qorunması üçün strateji prioritet hesab edilir. Qlobal informasiya axını, internet resursları, sosial şəbəkələr və qloballaşma prosesləri fonunda dil üzərində xarici təsirlər artmış, gənc nəsillər arasında xarici sözlərin həddindən artıq istifadəsi müşahidə olunmuşdur. Belə şəraitdə ədəbi dilin qorunması yalnız fərdi səylərlə mümkün

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

deyil; bu, sistemli və institusional yanaşma tələb edən kompleks prosesdir.

Bu kontekstdə dövlət qurumları, akademik cəmiyyət, alimlər, yazıçılar, jurnalistlər və ictimai fəallar birlikdə fəaliyyət göstərməli, dilin standartlarının qorunması, terminlərin düzgün istifadəsi və leksik zənginliyin qorunması istiqamətində koordinasiyalı tədbirlər həyata keçirməlidirlər. Bu tədbirlər arasında təhsil proqramlarının təkmilləşdirilməsi, mediada və elektron platformalarda ədəbi dil normalarına riayət edilməsi, terminoloji lüğətlərin hazırlanması və ictimai maarifləndirmə kampaniyalarının aparılması mühüm yer tutur.

Prezidentin çağırışı dilin qorunmasının yalnız formal və ya simvolik bir məsələ olmadığını göstərir; o, davamlı nəzarət, sistemli monitorinq və ictimai dəstək tələb edən strateji prosesdir. Dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi, bu proses milli kimliyin möhkəmləndirilməsi, milli özünüdərk və dövlətçilik ideologiyasının qorunması ilə sıx bağlıdır. Dilin qorunması, ədəbi normaların tətbiqi və təmiz saxlanması yalnız dövlətin və ictimai institutların deyil, hər bir fərdin məsuliyyəti olmalıdır. Bu yanaşma dilin funksional və ideoloji mövqeyini gücləndirir və Azərbaycan dilinin həm milli, həm də qlobal informasiya mühitində davamlılığını təmin edir.

Prezidentin çıxışında səsləndirilən ideyanın əsas məzmunu müasir dövrdə dilin qorunmasının daha böyük məsuliyyət tələb etməsi fikri ilə tamamlanır. Əgər keçmişdə dil müstəmləkəçilik şəraitində xalqın daxili müqaviməti hesabına qorunurdusa, bu gün müstəqil dövlət, milli təhsil sistemi və geniş informasiya resurslarının mövcudluğu şəraitində ana dilinin inkişafı və qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmalıdır. Dilin inkişaf etdirilməsi, funksional sahələrinin genişləndirilməsi və qloballaşma çağırışlarına uyğunlaşdırılması müasir dövlətçilik ideologiyasının strateji vəzifələrindən biridir.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Nəticə etibarilə, dilin dövlətçilik ideologiyasındakı rolu onun milli ideyanın formalaşmasında, tarixi davamlılığın təmin olunmasında və milli təhlükəsizliyin ideoloji aspektlərinin qorunmasında çıxış edən fundamental institut kimi qiymətləndirilməsini zəruri edir. Azərbaycan dilinin tarixi davamlılığı xalqın böyüklüyünün və milli iradəsinin göstəricisi kimi təqdim olunmaqla yanaşı, müasir nəsillər üçün strateji məsuliyyət və milli vəzifə kimi dərk edilməlidir.

Dövlət başçısının dil məsələsinə yanaşması qətiyyətli və strateji xarakter daşıyır. Prezidentin vurğuladığı kimi, xarici sözlərin nəzarətsiz və məqsədsiz şəkildə ana dilinə daxil olması dili zənginləşdirməkdən daha çox onun struktur və semantik bütövlüyünü zədələyir, eyni zamanda, milli kimliyin zəifləməsinə səbəb olur. Bu fikir dilin yalnız linqvistik sistem kimi deyil, milli ideologiyanın və identiklik şüurunun əsas sütunlarından biri kimi dəyərləndirildiyini göstərir.

Bu yanaşmada mühüm səbəb-nəticə məntiqi qurulur: dilin deqradasiyası milli kimliyin zəifləməsinə gətirib çıxarır, milli kimliyin zəifləməsi isə dövlətçilik dayaqlarını sarsıdır. Nəticə etibarilə, dilin zəifləməsi təkcə mədəni problem deyil, dövlətin suverenliyi və davamlılığı üçün potensial təhlükə yaradan strateji risk faktoru kimi təqdim edilir. Beləliklə, dil məsələsi estetik və ya sırf filoloji problem kimi deyil, dövlətin gələcəyi ilə bağlı konseptual və təhlükəsizlik xarakterli məsələ kimi dərk olunur.

Prezidentin mövqeyi ifrat dil purizmi və izolyasionizm ideyasına əsaslanmır. O, çoxdilliliyin müsbət tərəflərini qəbul edir və xarici dillərin öyrənilməsini və istifadə olunmasını faydalı hesab edir. Lakin əsas prinsip funksional differensiasiya ideyasına söykənir: xarici dillər zəruri kontekstlərdə və professional sahələrdə istifadə edilməli, ana dili isə ictimai həyatın, mədəni diskursun və media məkanının əsas kommu-

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

nikasiya vasitəsi kimi qorunmalıdır. Bu yanaşma dil siyasətində balanslı modelin tərəfdarı olunduğunu göstərir.

Müasir qloballaşma şəraitində dil siyasəti izolyasiya prinsiplərinə əsaslana bilməz. İnternet, sosial media və qlobal informasiya mühiti fonunda qapalı dil mühitinin mümkün olmadığı qəbul edilir.

Bununla belə, dövlət başçısının konsepsiyasında ana dilinin qorunması passiv proses kimi deyil, şüurlu seçim və ictimai məsuliyyət tələb edən aktiv mübarizə kimi təqdim olunur. Bu "mübarizə" dövlət institutlarının, təhsil sisteminin, medianın və cəmiyyətin bütün üzvlərinin birgə fəaliyyətini zəruri edən kompleks sosial və ideoloji prosesdir. Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbirdə Azərbaycan dili ilə bağlı səsləndirdiyi fikirlərində əsas konseptual xəttin dilin milli birlik və dövlətçilik sistemində fundamental rolunun vurğulanması olduğunu qeyd etmişdir. Dövlət başçısının mövqeyinə görə, dil millətin konsolidasiyasını təmin edən və dövlətçilik institutlarının ideoloji əsaslarını möhkəmləndirən əsas sistemyaradıcı faktordur.

Bu yanaşmada dil yalnız kommunikativ funksiya daşıyan vasitə kimi deyil, həm də dövlət rəmzləri – bayraq, gerb və himn ilə eyni semantik və ideoloji müstəvidə dayanan, dövlətçilik şüurunun formalaşmasında və milli identiklik konstruksiyasının qurulmasında mühüm rol oynayan əsas atribut kimi qiymətləndirilir.

Beləliklə, Prezidentin mövqeyi dilin mədəni fenomen olmaqla yanaşı, siyasi-ideoloji institut kimi dövlətin ideoloji suverenliyinin və milli özünüdərk proseslərinin əsas struktur komponentlərindən biri olduğunu göstərir. Dovlət rəhbərinin dil siyasəti ilə bağlı mövqeyi dilin milli kimlik və dövlətçilik ideologiyasındakı fundamental rolunu təsdiqləyir. Ana dilinin qorunması və inkişafı mədəni və estetik məsələ olmaqla yanaşı,

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

milli təhlükəsizliyin, ideoloji suverenliyin və dövlətin uzunmüddətli davamlılığının əsas şərtlərindən biri kimi təqdim edilir. Bu baxımdan, dil siyasəti yalnız filoloji problem deyil, strateji dövlət siyasətinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməlidir.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 38-43
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 38-43
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Röya Gözəlova**
M.Füzuli adına Əlyazmalar İnstitutu
doktorant
https://orcid.org/0009-0009-3997-1510
royagozalova792@gmail.com

# “Təzkireyi-Yusif”də qəzəl janrı və lirizmin çoxqatlı modeli

***Açar sözlər:*** *Təzkireyi-Yusif, qəzəl janrı, divan poeziyası, lirizm, sufi estetikası, poetik obrazlar*

***Keywords:*** *Tazkirayi-Yusif, ghazal genre, divan poetry, lyricism, Sufi aesthetics, poetic imagery*

XIX əsr Azərbaycan ədəbi mühiti estetik baxımdan klassik divan poetikasının formalaşdırdığı sabit bədii prinsiplərlə yeni sosial-mədəni dəyişikliklərin qarşılıqlı təsiri şəraitində inkişaf edən bir keçid mərhələsini əks etdirir. Bu dövrdə bir tərəfdən əruz vəzninin ritmik sistemi, janr iyerarxiyası və klassik poetik obrazlar kompleksi ədəbi yaradıcılığın əsas normativ çərçivəsi kimi fəaliyyətini davam etdirirdi. Digər tərəfdən isə şəhər mədəniyyətinin genişlənməsi, maarifçilik ideyalarının yayılması və ictimai düşüncədə baş verən dəyişikliklər poetik ifadənin məzmununda yeni çalarların meydana çıxmasına səbəb olurdu. Nəticədə ədəbi mətnlər yalnız estetik ifadə vasitəsi kimi deyil, həm də dövrün intellektual mühitini, ideya qarşıdurmalarını və mənəvi axtarışlarını əks etdirən mühüm mədəni sənədlər kimi dəyərləndirilə bilər.

Bu baxımdan təzkirə janrı müəyyən dövrün ədəbi mühitini əks etdirən, poetik dəyərlər sistemini formalaşdıran və janr seçimləri vasitəsilə estetik meyilləri göstərən mühüm mətnlərdir. Bu mənada “Təzkireyi-Yusif” XIX əsr Azərbaycan poeziyasının janr strukturunu və lirizmin məzmun qatlarını

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

izləmək baxımından xüsusi əhəmiyyət kəsb edən mənbələrdən biridir. Təzkirədə təqdim olunan poetik nümunələrin ümumi mənzərəsi qəzəlin bu ədəbi mühitdə aparıcı mövqedə olduğunu göstərir. Burada qəzəl yalnız ənənəvi poetik forma kimi deyil, həm də klassik estetik düşüncənin və poetik identikliyin əsas daşıyıcılarından biri kimi çıxış edir. Qəzəlin XIX əsrdə aktuallığını qoruyub saxlamasının səbəbi onun yalnız məhəbbət lirikasını ifadə edən janr olmaması ilə bağlıdır. Qəzəl eyni zamanda varlıq, idrak, zaman, fanilik və ilahi həqiqət kimi fəlsəfi problemlərin poetik müstəvidə ifadəsinə imkan verən bədii modeldir. Bu baxımdan qəzəl emosional lirikanı və fəlsəfi düşüncəni eyni poetik sistem daxilində birləşdirən xüsusi janr forması kimi diqqəti cəlb edir.

Tədqiqatın əsas məqsədi "Təzkireyi-Yusif"də qəzəl janrının dominant mövqeyini və bunun poetik məzmun baxımından yaratdığı nəticələri araşdırmaqdır. Bu çərçivədə diqqət üç əsas istiqamətə yönəldilir: birincisi, təzkirədə janr bölgüsünün klassik divan poeziyası ənənəsi ilə uyğunluğunun müəyyənləşdirilməsi; ikincisi, qəzəllərdə lirizmin yalnız emosional səviyyədə deyil, ontoloji və idraki məna qatlarında necə formalaşdığının təhlili; üçüncüsü isə təsəvvüf estetikası və intertekstual əlaqələr fonunda poetik obrazların funksional semantikasının izah edilməsidir.

Qəzəl janrının formalaşmasında ərəb, fars və türk poetik ənənələrinin qarşılıqlı təsiri mühüm rol oynamışdır. İngilis şərqşünası E.G.Browne qəzəlin mahiyyəti barədə qeyd edir ki, bu janr Şərq poeziyasının ən saf lirik formalarından biri kimi qəbul olunur və eşq, irfani duyğular, eləcə də varlıq haqqında düşüncəni qısa poetik strukturlar daxilində ifadə etmək imkanı yaradır (Browne, 1906, s. 317). Brownenin bu fikri Azərbaycan qəzəl ənənəsinə də uyğun gəlir. Klassik Azərbaycan poeziyasında, xüsusilə Füzuli yaradıcılığında qəzəl yalnız məhəbbət lirikasının ifadə forması deyil, həm də eşqin metafizik

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

mahiyyətini və insanın varlıq haqqında düşüncələrini poetik şəkildə təqdim edən mühüm bədii model kimi çıxış edir. “Təzkireyi-Yusif”də toplanmış poetik nümunələrin təhlili göstərir ki, qəzəl XIX əsr Azərbaycan ədəbi mühitində yalnız ənənəvi janr forması kimi deyil, poetik düşüncənin əsas ifadə müstəvilərindən biri kimi çıxış edir.

Təzkirədə iyirmidən artıq qəzəlin yer alması bu janrın toplunun əsas lirik qatını təşkil etdiyini göstərir. Müxtəlif şairlərə məxsus iyirmidən artıq qəzəl təzkirədə qəzəl janrının geniş şəkildə təmsil olunduğunu göstərir. Mirzə Səməndər Dərbəndi, Seyid Əzim Şirvani, Haşim bəy Saqib, Məhəmmədağa Cürmi, Müşkat, Ağadadaş Müniri, Məhəmməd Müsəvvir, Səməd Mənsur, Sabit Məhəmmədəli, Əli Şövqi, Nayi və Qubad kimi şairlərin qəzəlləri toplunun əsas lirik materialını təşkil edən nümunələr sırasındadır. Bu qəzəllərin tematik istiqaməti klassik poetik ənənəyə uyğun olaraq əsasən eşq və irfani düşüncə ilə bağlıdır. Bununla yanaşı, bəzi nümunələrdə fəlsəfi düşüncə elementləri, ictimai motivlər, eləcə də təbrik və mədh xarakterli mətnlərə də rast gəlinir. Bu tematik müxtəliflik qəzəlin XIX əsr Azərbaycan poeziyasında yalnız ənənəvi lirik forma kimi deyil, müxtəlif məzmun qatlarını ifadə edən geniş poetik imkanlara malik janr kimi fəaliyyət göstərdiyini göstərir. “Təzkireyi-Yusif”də yer alan qəzəllərin diqqətəlayiq cəhətlərindən biri onların klassik Şərq poetikasında formalaşmış sabit obrazlar və simvolik işarələr sistemi ilə sıx bağlı olmasıdır. Bu qəzəllərdə istifadə olunan poetik obrazlar divan poeziyasının əsrlər boyu formalaşmış bədii ənənəsini davam etdirir. Səməd Mənsurun qəzəlində işlənən “könül”, “od”, “şüur”, “xəyal”, “oyuncaq”, “müəmma” kimi söz və obrazlar qəzəl poetikasının ənənəvi semantik sahəsinə aid elementlərdir və bu obrazlar şairlərin poetik düşüncəsində öz funksional əhəmiyyətini qoruyub saxlayır. Qəzəl aşağıdakı beytlə başlayır:

Bir gizli od etməkdə yenə könlümü təhqiq,

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Əfsus, eləməz kəndü şüurum onu tədqiq (Təzkireyi-Yusif, 2016, s. 39).

Bu beytdə işlədilən obrazların hər biri müəyyən poetik məna qatını ifadə edir. "Könül" insanın mənəvi aləmini və daxili həqiqət axtarışını, "od" eşqin yandırıcı, eyni zamanda, saflaşdırıcı gücünü, "şüur" rasional idrakın məhdud imkanlarını ifadə edir. "Xəyal" və "müəmma" kimi anlayışlar isə dünyanın sirli və dəyişkən təbiətini simvolizə edən poetik kodlar kimi çıxış edir.

Şairin bu poetik yanaşması Hafiz Şirazi lirikasında geniş şəkildə rast gəlinən motivlərlə də səsləşir. Hafizin məşhur "Ağlı eşqin oduna yandırdım" misrasında ifadə olunan eşqin ağla üstünlüyü ideyası Səməd Mənsurun qəzəlində də bədii şəkildə öz əksini tapır (Korangy, 2019, s. 4). Qəzəldə "şüur"un dərk edə bilmədiyi məqamın "eşq odunun" vasitəsilə aydınlaşması həm sufi idrak modelinin əsas prinsipləri ilə səsləşir, həm də qəzəl janrının irfani-fəlsəfi funksiyasını nümayiş etdirir. Bu poetik yanaşma eşqin yalnız emosional hal kimi deyil, idrak prosesini dəyişdirən mənəvi təcrübə kimi təqdim olunduğunu göstərir. A.Schimmel də sufi qəzəlini şərh edərkən qeyd edir ki, bu poetik ənənədə eşq insanın idrakını dəyişdirən və varlıq haqqında təsəvvürlərini yenidən formalaşdıran ontoloji təcrübə kimi dərk olunur (Schimmel, 1982, s. 53).

Qəzəl janrının əsas xüsusiyyətlərindən biri hesab olunan fanilik ideyası təzkirədəki poetik nümunələrdə də geniş şəkildə əks olunmuşdur. Dünyanın keçici və dəyişkən mahiyyəti, onun "oyuncaq" və "müəmma" kimi obrazlar vasitəsilə təqdim edilməsi qəzəl poetikasının ənənəvi tematik istiqamətlərindən biridir. Bu obrazlar vasitəsilə həyatın faniliyi və dünyanın sabit olmayan təbiəti poetik şəkildə ifadə olunur. J.Rypka qəzəlin bu xüsusiyyətini ümumiləşdirərək qeyd edir ki, qəzəl janrı tez-tez dünyanın keçiciliyi mövzusuna qayıdır və lirik duyğunu varlıq haqqında düşüncə ilə birləşdirir (Rypka, 1968, s. 58).

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 38-43
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 38-43
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

"Təzkireyi-Yusif"də də bu motiv müxtəlif şairlərin qəzəllərində öz əksini tapır. Məsələn, Haşim bəy Saqibin qəzəllərindən birində zamanın və dünyanın dəyişkənliyi aşağıdakı beyt vasitəsilə ifadə olunur:

Nərgisi-bîmari-canan zar-zar ağlar bizə,
Əstü xakə döndərər ruzigar ağlar bizə. (Təzkireyi-Yusif, 2016, s. 12).

Bu beytdə "ruzigar" obrazı taleyin və zamanın dəyişkənliyini simvolizə edir. Lirik subyektin şəxsi kədəri ümumi varlıq düşüncəsinə bağlanır və beləliklə, fanilik ideyası qəzəlin fəlsəfi qatında ifadə olunur. "Zar-zar ağlamaq" ifadəsi emosional intensivlik yaratsa da, əsas vurğu fanilikdir. Dünya dağılır, insan keçicidir, ad qalmaz. Bu, ekzistensial səviyyədə varlıq qorxusu deyil; ontoloji dərk aktıdır. Fanilik idrakı dərinləşdirir və subyekti metafizik axtarışa yönəldir. "Təzkireyi-Yusif"də zülf, nur, od, ruzigar, məhi-taban kimi obrazlar sabit poetik kodlar kimi çıxış edir:

Zülfünə düşdü könül, çıxa bilməz andan,
Hər nə qədər istədi, qurtula bilməz andan. (Təzkireyi-Yusif, 2016, s. 47).

Zülf burada sirr və çoxluq aləmini simvolizə edir. Könülün zülfə düşməsi varlığın cazibə qüvvəsinə təslim olmaqdır. Bu cazibə romantik deyil, ontolojidir. Digər tərəfdən:

Səndən ayrı düşəli könlümə sığmaz bu cahan... (Təzkireyi-Yusif, 2016, s. 54).

Buradakı ayrılıq zahiri deyil, metafizik uzaqlıqdır. Cahanın könlə sığmaması varlığın ilahi vəhdətə meylini göstərir.

Aparılan araşdırma göstərir ki, "Təzkireyi-Yusif" XIX əsr Azərbaycan ədəbi mühitində qəzəl janrının aparıcı mövqeyini aydın şəkildə əks etdirən mühüm mənbələrdən biridir. Təzkirədə yer alan qəzəllər klassik divan poetikasının struktur prinsiplərini, yəni beyt quruluşunu, qafiyə-rədif sistemini və sabit poetik obrazlar kompleksini qorumaqla yanaşı, lirizmin

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

fəlsəfi və irfani məna qatlarını da ifadə edir. Qəzəllərdə eşq, idrak, zaman və fanilik motivləri klassik poetik ənənə ilə əlaqəli şəkildə təqdim olunur və bu janrın yalnız lirik duyğuların ifadəsi ilə məhdudlaşmadığını göstərir. "Təzkireyi-Yusif"də qəzəl janrı həm poetik ənənənin davamlılığını, həm də XIX əsr Azərbaycan poeziyasında lirizmin estetik və fəlsəfi inkişafını nümayiş etdirən əsas bədii formalarından biri kimi çıxış edir.

## Ədəbiyyat

1. Browne, E.G. (1906). *A literary history of Persia*. Luzac & Co. https://archive.org/details/literaryhistoryofpersia
2. Korangy, A. (2019). Love and Reason in the Ghazal. In *A Companion to World Literature*, pp. 1–12.
3. Rypka, J. (1968). *History of Iranian literature*. D. Reidel Publishing. https://link.springer.com/book/10.1007/978-94-010-9473-7
4. Schimmel, A. (1982). *As through a veil: Mystical poetry in Islam*. Columbia University Press.
5. *Təzkireyi-Yusif*. (2016). Xəyal, S. (Ed.). Ecoprint.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Cəfər İbadov**
Azərbaycan Dövlət İqtisad Universiteti
https://orcid.org/0009-0007-9084-853X
jafar.ibadov@unec.edu.az

# Ali təhsil müəssisələrində kouçinq tərzli tələbə–müəllim münasibətlərinin perspektivləri

***Açar sözlər:*** *kouçinq, ali təhsil, tələbə–müəllim münasibətləri, tələbə-mərkəzli təlim, emosional intellekt, reflektiv düşünmə, fərdi inkişaf*
***Keywords:*** *coaching, higher education, student-teacher relationship, student-centered learning, emotional intelligence, reflective thinking, personal development*

Kouçinq tərzli yanaşma son illərdə, xüsusilə post-pandemiya dövründə, təhsil və biznes sahələrində diqqəti cəlb edən inkişaf istiqamətlərindən biri kimi formalaşmaqdadır. Ali təhsil müəssisələrində bu yanaşma tələbə-mərkəzli təlim modelinin güclənməsinə, tələbələrin aktiv öyrənmə və reflektiv düşünmə bacarıqlarının inkişafına şərait yaradır. Kouçinqin nəzəri əsasları andraqogika və humanist psixologiya ilə bağlı olub, fərdin daxili potensialının üzə çıxarılmasına yönəlir. Emosional intellektin inkişafı bu yanaşmanın effektivliyini daha da artırır. Təqdim olunan tezisdə ali təhsil mühitində kouçinq tərzli tələbə–müəllim münasibətlərinin tətbiq imkanları və perspektivləri ümumiləşdirilir, bu modelin tələbələrin məsuliyyətli, müstəqil və inkişafyönümlü fərdlər kimi formalaşmasına təsiri göstərilir.

Kouçinq tərzli yanaşma müasir təhsil mühitində tələbələrin inkişafını dəstəkləyən effektiv metodlardan biri kimi çıxış edir. Bu yanaşma fərdin daxili potensialını üzə çıxarmağa və onun məqsədlərinə daha sistemli şəkildə çatmasına dəstək verən

fasilitativ proses kimi izah olunur (Whitmore, 2017). Təhsil mühitində kouçinq ənənəvi bilik ötürmə modelindən fərqli olaraq tələbənin aktiv iştirakını və düşünmə prosesini ön plana çıxarır.

Ali təhsil müəssisələrində kouçinq yanaşmasının tətbiqi tələbə-mərkəzli təlim modelinin güclənməsi ilə xarakterizə olunur. Bu model çərçivəsində tələbələr təlim prosesində daha fəal iştirak edir, öz öyrənmə proseslərinə daha çox məsuliyyətlə yanaşır və nəticəyönümlü düşünmə bacarıqlarını inkişaf etdirirlər (Grant, 2014). Beləliklə, tələbə passiv dinləyici rolundan çıxaraq aktiv öyrənən subyektə çevrilir.

Kouçinq yanaşmasının nəzəri əsasları andraqogika və humanist psixologiya ilə sıx bağlıdır. Knowles (1984) böyüklərin öyrənmə prosesində müstəqilliyə və təcrübəyə əsaslanan yanaşmaya üstünlük verdiyini qeyd edir. Rogers (1969) isə fərdin daxili potensialına və inkişaf imkanlarına fokuslanaraq bu yanaşmanı dəstəkləyir. Kolbun təcrübəyə əsaslanan öyrənmə modeli isə öyrənmə prosesinin davamlı və dövri xarakter daşıdığını göstərir.

Bununla yanaşı, emosional intellektin inkişafı da kouçinq yanaşmasının mühüm komponentlərindən biridir. Goleman (1995) emosional intellekti fərdin öz emosiyalarını idarə etməsi və effektiv sosial münasibətlər qurması üçün əsas faktor kimi qiymətləndirir. Bu bacarıqların inkişafı tələbələrin həm akademik, həm də şəxsi həyatına müsbət təsir göstərir.

Müasir dövrdə ali təhsil sistemində təlim yanaşmaları təkamül xarakterli şəkildə inkişaf edir. Bir sıra ali təhsil müəssisələrində artıq ənənəvi yanaşmalar müasir metodlarla inteqrasiya olunur. Bu kontekstdə kouçinq tərzli münasibətlər tələbə–müəllim qarşılıqlı əlaqələrinin daha çevik, əməkdaşlıq əsaslı və inkişafyönümlü qurulmasına şərait yaradır.

Mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, kouçinq yanaşması biznes və idarəetmə sahəsində daha geniş şəkildə

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

araşdırılsa da, ali təhsil mühitində tələbə–müəllim münasibətləri kontekstində bu yanaşmanın sistemli və dərin tədqiqinə hələ də ehtiyac vardır. Xüsusilə post-pandemiya dövründə təhsil modellərinin transformasiyası fonunda kouçinq tərzli yanaşmanın tətbiq mexanizmləri, onun tələbələrin akademik nəticələrinə və şəxsi inkişafına təsiri gələcək tədqiqatlar üçün aktual istiqamətlərdən biri kimi çıxış edir. Bu baxımdan, mövzunun həm nəzəri, həm də praktik aspektlər üzrə genişləndirilməsi müasir ali təhsil sisteminin inkişafına töhfə verə bilər.

Nəticə etibarilə, kouçinq tərzli tələbə–müəllim münasibətləri ali təhsil mühitində perspektivli yanaşmalardan biri kimi qiymətləndirilə bilər. Bu model tələbələrin yalnız akademik göstəricilərini deyil, eyni zamanda onların şəxsi inkişafını, məsuliyyət hissini və düşünmə bacarıqlarını da gücləndirir.

Tövsiyə olunur ki, ali təhsil müəssisələrində kouçinq yanaşması mərhələli şəkildə tətbiq olunsun, müəllimlər üçün bu istiqamətdə təlim proqramları təşkil edilsin və tələbələrin aktiv iştirakını stimullaşdıran mühit formalaşdırılsın.

## Ədəbiyyat

1. Clutterbuck, D. (2013). *Coaching and Mentoring*. Sage.
2. Goleman, D. (1995). *Emotional Intelligence*. Bantam Books.
3. Grant, A. (2014). The efficacy of executive coaching in times of organizational change. *Journal of Change Management*, *14*(2), 258–280.
4. Hattie, J. (2009). *Visible Learning*. Routledge.
5. Knowles, M. (1984). *Andragogy in Action*. Jossey-Bass.
6. Kolb, D.A. (1984). *Experiential Learning: Experience as the Source of Learning and Development*. Prentice Hall.
7. Rogers, C. (1969). *Freedom to Learn*. Merrill Publishing.
8. Whitmore, J. (2017). *Coaching for Performance*. Nicholas Brealey Publishing.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Elnarə Quliyeva**
Azərbaycan Respublikası Müdafiə Nazirliyi
Milli Müdafiə Universitetinin
Hərbi Elmi Tədqiqat İnstitutu
adyunkt
https://orcid.org/0009-0000-9805-6421
elnareguliyeva26@gmail.com

# Quruda, dənizdə və havada aparılan müharibələrdə iştirak edən şəxslərin kombatant sayılmasının xüsusiyyətləri

***Açar sözlər:*** *müharibələr, fərqləndirici əlamətlər, qaydalar, döyüşçülər, konvensiyalar*
***Keywords:*** *wars, distinctive signs, rules, combatants, conventions*

Beynəlxalq hüquq quruda, dənizdə və ya havada aparılan müharibələrin iştirakçılarının dairəsini müəyyən edir və həmin şəxslərin müəyyən edilməsi üçün dinc əhalidən fərqləndirilməsi tələb olunur və düşmən əlinə keçdikdə hərbi əsir sayılmasına əsas vermiş olur.

Döyüş əməliyyatları zamanı qanuni hədəf kimi hərbi obyektlər və döyüşçülər (kombatantlar) qanuni hədəf hesab olunduğundan, tərəflərin üzərinə elə öhdəlik qoyulur ki, onların orduları yalnız döyüşçülərə qarşı hərbi güc tətbiq edə bilsinlər. Kombatantlar müəyyən edilərkən iştirak etdikləri müharibə növündən asılı olaraq bəzi xüsusiyyətlər də nəzərə alınmalıdır. Tabeliyində olanlara görə məsuliyyət daşıyan şəxs olmalıdır, uzaqdan görünən fərqləndirici nişan olmalıdır, açıq şəkildə silah gəzdirməlidirlər, hərəkətləri müharibə qanunlarına və adətlərinə uyğun olmalıdırlar.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 47-49
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 47-49
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Döyüşçülər – qarşı tərəfə qarşı əlində silahla birbaşa döyüş əməliyyatları aparan döyüşən tərəfin birinin silahlı qüvvələrinə məxsus şəxsi heyətinə aid şəxslərdir. Silahlı qüvvələrin əksər hissəsini kombatantlar təşkil edir. Müharibələrdə qeyri-nizami birləşmələr də iştirak etdikdə məsuliyyətli komandirin rəhbərliyi ilə fəaliyyət göstərdikdə və uzaqdan görünən müəyyən fərqləndirici nişanları olduqda hədəf obyektinə çevrilirlər.

12 avqust 1949-cu il tarixli III Cenevrə Konvensiyasının 4.A.6-cı maddəsinə görə, işğal edilməmiş ərazinin sakinlərinin döyüşçülər kimi tanınması üçün aşağıda qeyd olunmuş iki şərt mövcud olmalıdır: - açıq şəkildə silah gəzdirmək, müharibə qanunlarına və adətlərinə riayət etmək. Fərqləndirici nişan və silahın açıq gəzdirilməsi şərti ilə bağlı bildirmək lazımdır ki, şəxslər hərbi qeyim geyinməklə dinc sakinlərə məxsus olan üstünlüklərdən imtina etmiş olurlar və bununla da kombatantların vəziyyətinin əlverişsiz şərtlərini də üzərlərinə götürmüş olurlar.

Quruda aparılan müharibədə düşmənin hücum obyekti kimi döyüşənlər sayılırlarsa, havada aparılan müharibədə bu məsələ fərqlənir. 1923-cü ildə Haaqada havada müharibənin aparılması qaydalarının layihəsi üzərində aparılan iş yekunlaşmışdır. Həmin sənədə əsasən döyüşənlərin hüquqlarının istifadəsi üçün hərbi hava gəmilərinin dövlət mənsubiyyətini və hərbi təyinatını göstərən zahiri fərqləndirici nişanları olmalıdır. Lakin onların hərbi geyim formasının və fərqləndirici nişan daşımasının mütləq olması mübahisə predmeti olub. Çünki, uçuş zamanı onların geyimi görünmədiyindən, həmçinin, hərbi hava gəmisinin müvafiq fərqləndirici nişanı olduğundan gəmiyə və onun ekipajına qanuni kombatant statusu statusu verildiyindən, bunda ehtiyac qalmır.

Təyyarənin ekipaj üzvlərinə hərbi geyim formasını və ya fəqləndirici nişanı daşımasına o vaxt ehtiyac yaranır ki, onlar hərbi hava gəmisindən kənarda olsunlar.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Hərbi hava gəmisi mütləq dövlət hərbi qulluğunda olan və ya müvafiq səlahiyyət verilmiş şəxslərin tabeçiliyində olmalıdır. Ekipaj üzvləri hərbi qulluqçulardan ibarət olmalıdır. 1923-cü il tarixli Haaqa Qaydalarının 38-ci maddəsi hərbi hava gəmisində ola biləcək şərnişinləri də istisna etmir. Belə olan halda həm ekipaj üzvləri, həm şərnişinlər düşmən tərəfdən tutulduqda hərbi əsir sayılırlar.

Dəniz müharibəsində iştirak edən döyüşçülərin vəziyyəti, hüquqi statusuna da nəzər yetirilməlidir. Quruda aparılan döyüş əməliyyatlarında olduğu kimi, dəniz müharibəsində iştirak edən döyüşçülər də əsas iki kateqoriyaya, yəni nizami silahlı qüvvələrə və qeyri-nizami olmayan silahlı qüvvələrə bölünürlər. Dənizdə aparılan müharibədə iştirak edən döyüşən tərəflərin nizami silahlı qüvvələrinə dövlətin hərbi dəniz donanmasına aid olan hər növ və adda gəmi (hərbi gəmilər), dövlət tərəfindən hərbiləşdirilmiş gəmilər, hərbi gəmilərin şəxsi heyəti, həqiqi hərbi xidmət keçən və ya ehtiyatda olan hərbi dəniz qüvvələrin heyətinə mənsub olan şəxslər, dənizdə xidmət aparan hərbiləşdirilmiş şəxsi heyət, ölkənin qanunlarında nəzərdə tutulduğu halda, ordusunun və ya onun tərkibinə daxil olan müqavimət və ya könüllü dəstələrin üzvləri aiddir.

Hərbi dəniz gəmilərinin zahiri fərqləndirici əlamətləri bayraq və milli dəniz donanmasının bayrağı (vımpeli) çıxış edir. Dənizdə nizami silahlı qüvvələri yalnız döyüş əməliyyatlarının aparılması üçün nəzərdə tutulmuş gəmilərdən başqa, yardımçı gəmilərdən də ibarət ola bilər. Yardımçı gəmilər hərbi dəniz donanmasını silah-sursatla, yanacaqla, qida ilə, həmçinin, hava əməliyyatları üçün nəzərdə tutulmuş ordunun daşınması üçün itifadə olunur.

Beynəlxalq hüququn nöqteyi-nəzərindən öz ölkəsinin hərbi dəniz bayrağı altında üzən yardımçı gəmilərin hüquqi vəziyyəti məhz döyüş əməliyyatlarının aparılması üçün nəzərdə tutulmuş hərbi gəmilərin vəziyyətindən fərqlənmir. Hər biri qanuni

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

döyüşənlər sayılır və onların ekipaj üzvləri qanuni kombatant statusuna malikdirlər. Bundan istisna xüsusi və yeganə məqsədləri yalnız yaralılara, xəstələrə yardım və həlak olanları daşınması üçün döyüşən dövlətlər tərəfindən yaradılmış və təchiz olunmuş hərbi-tibbi (hospital) gəmilərdir ki, onlar hərbi güc təsiri altına düşmür və tutub saxlanıla bilməz.

## Ədəbiyyat

1. Arsibasov, İ.N., Eqorov, S.A. (1998). *Voorujennıy konflikt: pravo, politika, diplomatiya*.
2. Cenevrə Konvensiyaları. (1949, 12 avqust). *Müharibə qurbanlarının müdafiəsi haqqında*.
3. Haaqa Konvensiyası. (1907). *Quruda müharibə qanunları və qaydaları haqqında*.
4. Haaqa Qaydaları. (1923). *Hava müharibəsinin aparılmasına dair*.
5. Oksford Göstərişi. (1913). *Dəniz müharibəsi barədə*.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Gülarə Mürsəlova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0009-0853-6890
gulare1711@outlook.com

# Kommunikasiya terminlərinin milli və beynəlmiləl xüsusiyyətləri

***Açar sözlər:*** *kommunikasiya, terminologiya, milli terminlər, beynəlmiləl terminlər, qloballaşma, informasiya mübadiləsi*
***Keywords:*** *communication, terminology, national terms, international terms, globalization, information exchange*

Tezisdə kommunikasiya terminlərinin formalaşması, inkişafı və milli-beynəlmiləl xüsusiyyətləri təhlil edilir. Kommunikasiya anlayışı ictimai münasibətlərin, informasiya mübadiləsinin və mədəni inteqrasiyanın əsas mexanizmlərindən biri kimi çıxış edir. Müasir dövrdə qloballaşma və rəqəmsal texnologiyaların inkişafı nəticəsində terminoloji sistemdə beynəlmiləl sözlərin artımı müşahidə olunur. Bununla yanaşı, milli dilin qorunması və termin yaradıcılığı prosesi xüsusi əhəmiyyət daşıyır. Tezisdə kommunikasiya elminin əsas nəzəriyyələri, o cümlədən "A Mathematical Theory of Communication" əsərində irəli sürülən model, eləcə də "Communication Theory" kimi fundamental yanaşmalar nəzərdən keçirilir. Tədqiqat nəticəsində müəyyən edilir ki, kommunikasiya terminlərinin beynəlmiləlləşməsi elmi inteqrasiyanı sürətləndirsə də, milli terminologiyanın sistemli şəkildə inkişafı dilin zənginliyinin qorunması baxımından vacibdir.

Kommunikasiya latın mənşəli "communicatio" sözündən olub, "məlumat mübadiləsi", "əlaqə", "ünsiyyət" mənalarını ifadə edir. Müasir kommunikasiya nəzəriyyəsinin əsasları XX əsrdə formalaşmışdır. Xüsusilə Claude Shannon və Warren

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Weaver tərəfindən irəli sürülən model informasiyanın ötürülməsi prosesini texniki baxımdan izah etmişdir (Shannon və Weaver, 1948). Daha sonra David Berlo kommunikasiya prosesini mənbə–mesaj–kanal–qəbul edən sxemi əsasında genişləndirmişdir (Berlo, 1967). Bu nəzəri yanaşmalar kommunikasiya terminologiyasının beynəlxalq miqyasda yayılmasına və standartlaşmasına təkan vermişdir. Kommunikasiya terminologiyası, əsasən, üç mənbədən formalaşır:

1. *Milli dilin daxili imkanları* (məsələn, “ünsiyyət”, “məlumat ötürülməsi”);
2. *Alınma terminlər* (məsələn, “media”, “feedback”, “interaktivlik”);
3. *Beynəlmiləl terminlər* (məsələn, “kommunikasiya”, “informasiya”).

Elmi-texniki tərəqqi və rəqəmsal mühitin inkişafı nəticəsində ingilis mənşəli terminlərin üstünlüyü artmışdır (McQuail, 2010). Bu isə terminoloji sistemdə beynəlmiləl xüsusiyyətlərin güclənməsinə səbəb olmuşdur. Milli terminlər dilin leksik və morfoloji qaydalarına uyğun şəkildə yaradılır. Azərbaycan dilində kommunikasiya sahəsində bir sıra terminlər uğurla milliləşdirilmişdir:

- “Əks əlaqə” (feedback);
- “Kütləvi informasiya vasitələri” (mass media);
- “Rabitə” (communication).

Milli termin yaradıcılığı dilin müstəqilliyini və terminoloji sistemin sabitliyini təmin edir. Bu proses dil siyasəti və terminologiya komissiyalarının fəaliyyəti ilə sıx bağlıdır. Beynəlmiləl terminlər müxtəlif dillərdə oxşar fonetik və semantik quruluşa malik olur. Məsələn: kommunikasiya (communication), informasiya (information), media (media). Qloballaşma və beynəlxalq elmi əməkdaşlıq nəticəsində bu terminlər vahid anlayış sisteminin formalaşmasına xidmət edir.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Xüsusilə rəqəmsal kommunikasiya sahəsində yeni terminlər ("digital media", "online communication", "network") daha çox beynəlxalq xarakter daşıyır (Crystal, 2003). Milli və beynəlmiləl terminlər bir-birini tamamlayır. Beynəlmiləl terminlər elmi inteqrasiyanı asanlaşdırır, milli terminlər isə dilin özünəməxsusluğunu qoruyur. Optimal yanaşma beynəlmiləl terminlərin zəruri hallarda qəbul edilməsi və onların milli dil normalarına uyğunlaşdırılmasıdır. Kommunikasiya terminologiyası dinamik və inkişaf edən bir sistemdir. Qloballaşma şəraitində beynəlmiləl terminlərin artımı qaçılmazdır. Lakin milli termin yaradıcılığı və terminoloji siyasət dilin zənginliyini və funksionallığını qorumaq üçün əsas şərtdir. Elmi terminologiyanın harmonik inkişafı milli və beynəlmiləl xüsusiyyətlərin balanslı şəkildə uzlaşdırılmasını tələb edir.

## Ədəbiyyat

1. Berlo, D.K. (1967). *Communication theory*. Holt, Rinehart and Winston.
2. Crystal, D. (2003). *English as a Global Language* (2nd ed.). Cambridge University Press.
3. McQuail, D. (2010). *McQuail's Mass Communication Theory* (6th ed.). Sage Publications.
4. Shannon, C.E., & Weaver, W. (1948). *A Mathematical Theory of Communication*. University of Illinois Press.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Aytən Aslanova**
Sumqayıt Dövlət Universiteti
https://orcid.org/0009-0006-8150-7592
ayti.93.93@mail.ru

# Effektiv məktəb idarəçiliyi

***Açar sözlər:*** *effektivlik, məktəb idarəçiliyi, liderlik, kurikulum*
***Keywords:*** *effectiveness, school management, leadership, curriculum*

Bu tədqiqatda səmərəli məktəb idarəçiliyi ilə bağlı elmi mənbələr təhlil edilmişdir. Effektiv məktəb rəhbəri təhsil müəssisəsində uğuru əsas məqsəd kimi müəyyənləşdirir, müsbət mühit yaradır, şagirdlərin həm akademik nailiyyətlərini, həm də etik davranışlarını izləyir və tədrisdə yenilikçi yanaşmalar tətbiq edir. Məktəbdə təşkilati mədəniyyət dəyərlər, qaydalar və inanclar sistemi ilə formalaşır. Missiya və vizyona uyğun fəaliyyət bu mədəniyyəti gücləndirir. Araşdırmalar göstərir ki, güclü məktəb mədəniyyəti motivasiyaya müsbət təsir edir və məktəbin korporativ kimliyini formalaşdırır. Məktəb idarəçiliyində problemlərin həlli üçün kurikulumun yenilənməsi, nəzəri dərslərin azaldılması, praktik və bacarıq yönümlü fənlərin artırılması, həmçinin, innovativ metodların tətbiqi vacib sayılır. Karyera inkişafında layiqlilik prinsipi əsas götürülməlidir. Effektiv idarəetmənin əsas şərtlərindən biri müəllimlərin qərarvermədə fəal iştirakıdır. Müəllimlərin fikirlərinə dəyər verilməsi, ədalət, səriştəli rəhbərlik, güclü ünsiyyət və dürüstlük məktəb mədəniyyətini gücləndirir. Nəticədə, uğurlu məktəb yüksək nailiyyət, peşəkar müəllim heyəti, güclü liderlik və sağlam məktəb–ailə əməkdaşlığı ilə xarakterizə olunur.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Məktəb cəmiyyətin özəyi, onun inkişafını təmin edən ana xətt olub, idarəedilməsi olduqca mürəkkəb və məsuliyyət tələb edən sahədir. Respublikamızda məktəblərin idarə olunması dövlətin və cəmiyyətin idarəetmə prinsipləri əsasında həyata keçirilir. Təhsilin idarəolunması və ona rəhbərlik edilməsi sahəsində dövlət və özünüidarə sistemi yaradılmışdır. İdarəetmə və rəhbərlik anlayışı bir-birindən fərqli mənalar kəsb edir.

Effektiv məktəb idarəçiliyi bütün ölkələrin təhsil plan və proqramlarında önəmli yer tutur. Keçmişdən bu günə qədər səmərəli məktəb araşdırmalarına və məktəb inkişafı proseslərinə böyük ehtiyac mövcuddur. Məktəblərin məqsədlərinə nə dərəcədə nail olduqlarının müəyyənləşdirilməsi, məktəblərin daha təsirli idarə olunması, məktəblərin effektivlik baxımından fərqlənməsi, məktəbin gənc nəslin inkişafına təsiri və digər oxşar səbəblər bunu vacib edir (Balcı, 2001).

Scheerens-in fikrincə, səmərəli məktəb rəhbəri məktəbdə uğuru önə çıxarır, pozitiv mühit yaradır, şagirdləri akademik və etik baxımdan izləyir və tədris prosesində yeni strategiyalar tətbiq edir. Məktəb direktorlarının idarəetmə üslubunun məktəb mədəniyyətinə təsirinə dair araşdırmada əməkdaşlığa əsaslanan idarəetmə üslubunun məktəblərdə üstünlük təşkil etdiyi müəyyən edilmişdir. Müəllimlərin çoxu ədalətli, məktəbə bağlı və səmimi lider tipini üstün tutur (Çetin və Arzu, 2021; Can və Ozan, 2020). Problemlərin əməkdaşlıq və fikir mübadiləsi yolu ilə həll edilməsi nəticəyə daha sürətli çatmağa imkan verir.

Məktəb idarəçiliyində səhvlər qaçılmazdır. İdarəçi səhvlərinin səbəblərini və onların sonrakı təsirlərini qiymətləndirən tədqiqatda rəhbərlər səhvlərin əsas səbəbləri kimi təcrübəsizlik, məktəb mədəniyyətini kifayət qədər bilməmə, ünsiyyət çatışmazlığı, yüksək iş yükü və stresli iş şəraitini göstərmişlər. Eyni zamanda, səhvlərin təcrübə qazandırdığını, özünü tənqid etməyə imkan verdiyini, məktəb mədəniyyətini daha yaxşı

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 54-59
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 54-59
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

öyrənməyə şərait yaratdığını, qərarverməni diqqətli etməyə gətirdiyini və özünəinamı artırdığını qeyd etmişlər.

Effektiv məktəb idarəçiliyinin digər önəmli cəhəti müəllimlərin motivasiyasının təmin edilməsidir. Yaxşı motivasiya olunmayan müəllimdən yüksək nəticə gözləmək düzgün deyil. Bu motivasiyanın əsas qaynağı təşkilati mədəniyyətdir; məktəbin missiya və vizyonuna uyğun fəaliyyət bu mədəniyyəti gücləndirir. Effektiv məktəb idarəçiliyində kurikulumun yenilənməsi, nəzəri dərslərin azaldılması, praktik və bacarıq dərslərinin artırılması və innovativ yanaşmaların tətbiqi önəmlidir. Araşdırmalar göstərir ki, dövlət məktəblərində çalışan müəllimlərin məktəb barədə təsəvvürləri daha müsbətdir və şagird sayı az olan məktəblərdə müəllimlərin peşəkar mənsubiyyəti daha yüksəkdir.

Effektiv məktəb idarəçiliyinin əsas xüsusiyyətlərindən biri müəllimlərin idarəetmədə fəal iştirakıdır. Bunun üçün məktəb mədəniyyətinin güclü olması, müəllimlərin fikirlərinə hörmət, ədalət, səriştəli rəhbərlik, ünsiyyət bacarıqları, səmimilik və dürüstlük vacibdir. Araşdırmalar göstərir ki, müəllim və rəhbərlik heyətinin neqativ münasibətləri, ünsiyyət çatışmazlığı və qanunvericilikdən xəbərdar olmama iştirakın qarşısını alır. Uğurlu məktəb rəhbərləri əməkdaşlarına iş məmnuniyyəti verən, ünsiyyət bacarıqları güclü, işinə bağlı, yumor hissi olan və məktəb mədəniyyətini formalaşdıran şəxslərdir.

Effektiv məktəb müəyyən qrup tərəfindən gözlənilən nəticələri əldə edə bilən, məqsəd və vəzifələrini yerinə yetirən, şagirdlərin inkişafını təmin edən və öyrənmə mühitini uyğunlaşdıran məktəbdir. Məktəbin effektivliyini ölçərkən imtahan nəticələri, sosial-iqtisadi mühit, şagird və valideyn seçimləri, təhsil proqramlarının səmərəliliyi və məktəb daxilindəki əməliyyat planı nəzərə alınır (Balcı, 2007).

*Problemlər və ideal məktəb* – effektiv məktəb idarəçiliyində qarşılaşılan əsas problemlərdən biri məktəb rəhbərlərinin

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

idarəçilikdə çətinlikləridir. Araşdırmalar göstərir ki, rəhbərlər qanuni öhdəliklərə üstünlük verir, lakin peşəkar və etik dəyərlər arxa planda qalır, rəhbərlik bacarıqları zəif olur və ünsiyyət çatışmazlığı mövcuddur (Aslanargun və Bozkurt, 2012). Diyarbakırda aparılan bir araşdırmada isə fiziki problemlər – sinif otaqlarının çatışmazlığı, material və personal qıtlığı – əsas çətinliklər kimi qeyd edilmişdir. Eyni zamanda, valideyn, şagird, müəllim və idarəetmə ilə bağlı digər problemlər də önə çıxır.

Məktəb rəhbərləri prioritet problemlər kimi qanunvericilikdə tez-tez dəyişiklikləri, kurikulum və imtahan sistemindəki yenilikləri, planlaşdırılmamış və sabit olmayan təhsil sistemini vurğulayırlar. Müəllimlərin səriştəsinə diqqət yetirilməməsi, təyinatlarda layiqli seçim edilməməsi və müəllimlərin cəmiyyət tərəfindən dəyərləndirilməməsi də digər əsas problemlərdir. Yeni təyin olunmuş rəhbərlər isə peşəkar çatışmazlıqlar, bürokratiya, motivasiya itkisi, ünsiyyət problemləri, maliyyə və fiziki çatışmazlıqlar, müəllimlərin məsuliyyətdən yayınması və aidiyyət hissinin zəifliyi kimi çətinliklərlə üzləşirlər (Aslan, 2021, Bozkurt və b., 2018). Məktəb rəhbərləri problemləri həll edərkən ədalətli yanaşır və ünsiyyətdən istifadə edir, lakin elmi metodlardan sistemli şəkildə yararlanmırlar.

İdeal məktəb effektiv məktəb idarəçiliyinin xüsusiyyətlərini əks etdirir: məktəb uğuru ön plandadır, rəhbərin şəxsi keyfiyyətləri əhəmiyyətlidir, müəllimlər peşəkar və vəzifə şüuru ilə işləyir, valideynlərlə güclü əlaqələr qurulur. Məktəb mühiti və valideyn birliyi problemlərin həllinə töhfə verməli, inkişaf fəaliyyətləri fasiləsiz aparılmalı və məktəbin ətraf mühiti şagirdlərin sosial-mədəni inkişafına dəstək olmalıdır.

Effektiv məktəb rəhbərləri təhsil məqsədlərinə uyğun məktəbi idarə edir, qanuni və sosial resursları düzgün istiqamətləndirir, fiziki mühit və tədris materiallarını səmərəli

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

istifadə edərək şagirdlərin akademik və emosional inkişafını təmin edirlər. Effektiv məktəblərdə bütün şagirdlər əsas bacarıqları qazanır: yazılı, şifahi və elektron ünsiyyət, riyazi biliklər, vətəndaşlıq bacarıqları və informasiya analiz etmək qabiliyyəti.

*Nəticələr* – effektiv məktəbdə uğur əsas prioritet olmalıdır və məktəb mədəniyyəti qurulmalıdır. Məktəb rəhbəri ədalətli, əməkdaşlığa açıq, səmimi və balanslı lider olmalıdır. Müəllimlərin motivasiyası uğurun əsas şərtlərindəndir, təşkilati mədəniyyət isə qaydalar, dəyərlər və inancları əhatə edir. Araşdırmalar göstərir ki, dövlət məktəblərində müəllimlərin məktəb barədə təsəvvürləri daha müsbətdir və şagird sayı az olan məktəblərdə müəllimlərin peşəkar aidiyyəti daha yüksəkdir. Effektiv məktəb idarəçiliyində maraqlı tərəflərin iştirakı vacibdir. Rəhbər problemləri sürətli həll etməli, zamanı səmərəli istifadə etməli, ünsiyyət bacarıqları, işə bağlılıq və idealizm kimi keyfiyyətlərə malik olmalıdır. Məktəb resursları və fəaliyyətləri planlı və sistemli şəkildə idarə edilməlidir.

*Tövsiyələr* – təhsil məqsədlərinin həyata keçirilməsi məktəbin səmərəli təşkili və idarə olunmasından asılıdır. Məktəblərdə dərslik proqramları yenilənməli, nəzəri dərslərin sayı azaldılmalı, praktik və bacarıq yönümlü dərslər artırılmalı, həmçinin, yenilikçi tədris metodları tətbiq olunmalıdır. Layiqli seçimlərə diqqət yetirilməli və karyera planlaması həyata keçirilməlidir. Müsbət məktəb mühiti şagird və müəllimlərin motivasiyasını yüksəldir və uğuru asanlaşdırır. Effektiv məktəb mədəniyyəti müəllimlərin fikirlərinə hörmət, ədalət, bacarıqlı rəhbərlər, ünsiyyət qabiliyyətləri, səmimiyyət və dürüstlük kimi prinsipləri əhatə etməli və hər kəsin məktəb işinə aktiv töhfəsini təmin etməlidir. Rəhbərlərdə qanuni öhdəliklərdən əlavə, peşəkar və etik dəyərlərə üstünlük verilməlidir. Məktəb rəhbərləri rəhbərlik və idarəçilik bacarıqlarını inkişaf etdirməli, liderlik və ünsiyyət qabiliyyətlərini gücləndirməlidirlər.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

## Ədəbiyyat

1. Aslan, G. (2021). The Vital Problems of Primary and Secondary Schools and Solution Suggestions: A Qualitative Analysis Based on the Opinions of School Administrators. *Journal of Qualitative Research in Education, 25*, 204–242.
2. Aslanargun, E., & Bozkurt, S. (2012). Problems Encountered by School Principals in School Management. *Gaziantep University Journal of Social Sciences, 11*(2).
3. Balci, A. (2001). *Effective School and School Development*. Pegem Publications.
4. Bozkurt, M., Üstün, A., Bayar, A. (2018). Problems of School Administrators with School Environment Relations and Suggestions for Solutions. *Journal of Hitit University Institute of Social Sciences, 11*(3), 2561–2574.
5. Can, E., & Ozan, C. (2020). Investigation of Classroom Teachers' Participation in School Management. *National Education, 49*(225), 55–87.
6. Cetin, S. (2019). Problems Faced by School Principals: A Qualitative Review. *Kastamonu Journal of Education, 27*(4), 1637–1647.
7. Çetin, B., & Arzu, B.A.L. (2021). The Effect of 2021 School Principals' Management Style on School Climate. *International Journal of Leadership Education, 1*(I), 16–30.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 60-64
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 60-64
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Kamil Miriyev**
Azərbaycan Milli Elmlər Akademiyası
doktorant
https://orcid.org/0009-0003-8335-9106
kamilmiri@gmail.com

# ABŞ xarici siyasətinin formalaşmasında beynəlxalq münasibətlər nəzəriyyələrinin metodoloji əsasları və Orta Şərq regionuna tətbiq istiqamətləri

***Açar sözlər:*** *ABŞ-ın Orta Şərq siyasəti, beynəlxalq münasibətlər nəzəriyyələri, regional güc balansı, enerji təhlükəsizliyi və geosiyasət, ABŞ xarici siyasət strategiyaları*

***Keywords:*** *US Middle East policy, international relations theories, regional balance of power, energy security and geopolitics, US foreign policy strategies*

ABŞ-ın Orta Şərq siyasəti müasir beynəlxalq münasibətlər sisteminin ən mürəkkəb, çoxqatlı və dəyişkən sahələrindən biridir. XX əsrin ortalarından başlayaraq Vaşinqtonun regional strategiyası təkcə ABŞ-ın qlobal güc statusunun qorunması baxımından deyil, həm də beynəlxalq təhlükəsizlik arxitekturasının ümumi dizaynı baxımından həlledici rol oynamışdır (Abdullayev, 2021). Orta Şərq regionunun geosiyasi mövqeyi, zəngin enerji resursları, qlobal bazarların tənzimlənməsində oynadığı strateji funksiya, dini-siyasi parçalanmalar və regional güc münasibətlərinin kəskin rəqabət xarakteri ABŞ daxil olmaqla bütün böyük dövlətlərin maraqlarının kəsişdiyi mürəkkəb geosiyasi mühit yaradır. Bu səbəbdən ABŞ-ın Orta Şərq siyasəti həm nəzəri, həm tarixi, həm də strateji aspektlərdən xüsusi elmi araşdırma tələb edir.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Çin və Rusiyanın artan təsiri, İran-Səudiyyə balansının dəyişməsi, İsrail ilə ərəb dövlətləri arasında normallaşma prosesləri, enerji bazarlarının transformasiyası və ABŞ-ın qlobal rebalans siyasəti Orta Şərqdə sabit güc münasibətlərinin yenidən qurulmasına səbəb olmuşdur (Alterman, 2022). Bu dəyişikliklər ABŞ siyasətinin mahiyyətinin təkcə keçmiş mərhələlərlə deyil, həm də yeni qlobal sistemlə əlaqələndirilməsini tələb edir. ABŞ-ın Orta Şərq siyasətinin elmi-nəzəri bazasının araşdırılması yalnız regiondakı hadisələrin izahı üçün deyil, həm də qlobal güc balansının tənqidi təhlil edilməsi, beynəlxalq münasibətlər sisteminin transformasiya mexanizmlərinin daha dərindən dərk olunması üçün xüsusi əhəmiyyət daşıyır. ABŞ xarici siyasəti dünya siyasətinin ən çox tədqiq olunan sahələrindən biridir və müxtəlif nəzəri paradiqmaların, institusional mexanizmlərin, sosial-mədəni faktorların və geosiyasi maraqların təsirini özündə cəmləşdirən kompleks bir araşdırma sahəsi kimi formalaşmışdır (Bacevich, 2019).

Orta Şərq ABŞ üçün tarixən enerji təhlükəsizliyi, regional güc balansı və strateji müttəfiqlərlə münasibətlərin qorunması üçün kritik məkandır. Realist çərçivədə ABŞ siyasəti aşağıdakı istiqamətlərdə təzahür etmişdir (Sxem 1).

*Sxem 1: Realist çərçivədə ABŞ siyasətinin əsas istiqamətləri.*




Mənbə: Mearsheimer və Walt, 2007.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Sxem 1-dən aydın olur ki, realist çərçivədə ABŞ siyasətinin əsas istiqamətləri kimi güc balansının idarə olunması, hərbi əməliyyatlarda iştirak və hərbi bazaların yaradılması və terrorizmlə mübarizə çıxış edir. ABŞ-ın güc balansının idarə olunması siyasətinə misal olaraq İran, Səudiyyə Ərəbistanı, İsrail və Türkiyə kimi güc mərkəzləri arasında balanslaşdırma siyasətini göstərə bilərik (Walt, 1987). ABŞ-ın Qətər, Bəhreyn və Küveytdə hərbi mövcudluğu regional güc proyeksiyasına xidmət edir. Terrorizmlə mübarizə isə "11 sentyabr" hadisələrindən sonra daha da qlobal xarakter almağa başlamışdır. ABŞ xarici siyasəti dünya siyasətinin əsas determinantlarından biri olaraq beynəlxalq münasibətlər nəzəriyyələrinin müxtəlif paradiqmalarından təsirlənmişdir. Müxtəlif prezident administrasiyaları və dövrün geosiyasi şərtləri ABŞ siyasətində *realizm, liberalizm, konstruktivizm və neokonservatizm* kimi nəzəri çərçivələrin bir-biri ilə rəqabət aparmasına, bəzən isə paralel şəkildə mövcud olmasına səbəb olmuşdur.

Bu nəzəriyyələrin metodoloji əsaslarının araşdırılması ABŞ-ın Orta Şərqdəki strateji maraqlarını və əməli siyasətini daha dərindən anlamağa imkan verir.

**Cədvəl 1.**
Metodoloji yanaşmaların ABŞ-ın Orta Şərq siyasətinə inteqrasiyasının müqayisəli təhlili

| **Nəzəriyyə** | **Metodoloji əsas** | **ABŞ Orta Şərq siyasətinə təsiri** |
|---|---|---|
| Realizm | Güc, təhlükəsizlik, anarxiya | Güc balansı, enerji təhlükəsizliyi, hərbi iştirak |
| Liberalizm | İnstitutlar, əməkdaşlıq, normalar | Demokratiya təşviqi, iqtisadi islahatlar |

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

| | | |
|---|---|---|
| Konstruktivizm | Kimlik, ideyalar, normalar | İsrail ilə dəyər-itti-faq,terror diskursu |
| Neokonservatizm | Normativ güc + intervensiya | İraq müharibəsi, preventiv strategiya |

Mənbə: Məmmədov, 2021.

Realizm güc balansını, dövlətlərin milli maraqlarını və anarquik beynəlxalq sistemi ön planda saxlayan pozitivist epistemologiyaya söykənir. Klassik realistlər (Morgenthau) insan təbiətindəki güc arzusu üzərində, neorealistlər isə (Waltz) struktural sistem amilləri üzərində dayanır (Morgenthau, 1948; Waltz, 1979). Dövlətin əsas amil olması, milli təhlükəsizlik və gücün, siyasətin əzas məzmunu olması, eləcə də beynəlxalq sistemin anarxik xarakterdə olması, normativ çərçivələrdən daha çox strateji rasional seçimlərin ön plana çıxması realizmin əsas metodoloji arqumentlərini əmələ gətirir.

ABŞ xarici siyasətinin formalaşması və xüsusilə Orta Şərq regionunda həyata keçirdiyi strategiyaların təhlili göstərir ki, bu siyasət vahid nəzəri modelə əsaslanmır; əksinə, müxtəlif nəzəri istiqamətlərin, institusional mexanizmlərin və ideoloji çərçivələrin dinamik qarşılıqlı təsiri ilə formalaşır. Realist, liberal, konstruktivist və neokonservativ yanaşmaların hər biri ABŞ siyasətinin müxtəlif tərəflərini izah etməyə imkan verir və bu teoriyalar arasındakı münasibət təkcə bir-birini tamamlayan deyil, bəzən rəqabət aparan xarakter daşıyır. Bu isə ABŞ xarici siyasətinin çoxsəviyyəli, çoxparadiqmalı və çoxformatlı mahiyyətini üzə çıxarır.

## Ədəbiyyat

1. Abdullayev, A. (2021*). Geosiyasi transformasiyalar və ABŞ hegemonluğu: nəzəri təhlil*. Qlobal Araşdırmalar Mərkəzi.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

2. Alterman, J. (2022, March 29). *U.S. Power and Influence in the Middle East: Part Four*. Center for Strategic and International Studies (CSIS). https://www.csis.org/analysis/us-power-and-influence-middle-east-part-four
3. Bacevich, A.J. (2019). *America's War for the Greater Middle East: A Military History*. Random House.
4. Mearsheimer, J., & Walt, S. (2007). *The Israel lobby and U.S. foreign policy*. Farrar, Straus and Giroux.
5. Məmmədov, Z. (2021). *Qlobal təhlükəsizlik sistemi və hegemon güclər*. Diplomatiya Akademiyası Nəşriyyatı.
6. Morgenthau, H. (1948). Politics Among Nations. *The Struggle for Power and Peace*. Knopf.
7. Walt, S.M. (2018). The Hell of Good Intentions: America's Foreign Policy Elite and the Decline of U.S. Primacy. *Foreign Affairs, 97*(4), 43–54.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 65-69
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 65-69
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Günel Nəsibli**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0000-0752-5190
gallahyarova1996@gmail.com

# Avropa İttifaqı normativ güc kimi: tərəfdaş dövlətlərdə demokratik təsisatların inkişafına təsiri

***Açar sözlər:*** *Avropa İttifaqı, normativ güc, demokratiya, institusional transformasiya, tərəfdaş ölkələr*
***Keywords:*** *European Union, normative power, democracy, institutional transformation, partner countries*

Müasir beynəlxalq münasibətlər sistemində güc anlayışı artıq yalnız hərbi və iqtisadi potensialla məhdudlaşmır, normativ və ideoloji təsir mexanizmləri də qlobal siyasətdə mühüm rol oynayır. Bu kontekstdə Avropa İttifaqı (Aİ) beynəlxalq münasibətlərdə özünəməxsus aktor kimi çıxış edərək "normativ güc" modeli vasitəsilə təsir göstərən qurum kimi xarakterizə olunur. Normativ güc anlayışı Ian Manners tərəfindən nəzəri cəhətdən əsaslandırılmışdır və Aİ-nin beynəlxalq müstəvidə əsas rolunun dəyərlərin, xüsusilə demokratiya, insan hüquqları və hüququn aliliyinin yayılması ilə bağlı olduğu vurğulanmışdır (Manners, 2002).

Aİ-nin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, o, klassik güc vasitələrindən daha çox, norma və institutlar üzərindən təsir mexanizmlərini işə salır. Bu xüsusiyyət Aİ-ni "mülki güc" və ya "yumşaq güc" anlayışlarından fərqləndirərək daha sistemli və strukturlaşdırılmış normativ təsir aktoruna çevirir.

Normativ güc konsepsiyası beynəlxalq münasibətlər nəzəriyyəsində konstruktivist yanaşma çərçivəsində forma-

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

laşmışdır. Bu yanaşmaya görə, beynəlxalq sistem yalnız maddi güc balansı ilə deyil, həm də ideyalar, dəyərlər və identikliklər vasitəsilə formalaşır. Aİ bu sistemdə normativ aktor kimi çıxış edərək öz dəyərlərini digər dövlətlərə ötürməyi və onları daxili siyasi strukturlara inteqrasiya etməyi hədəfləyir (Smith, 2020).

Aİ-nin normativ bazasını təşkil edən əsas prinsiplər aşağıdakılardır: demokratiya, insan hüquqları, hüququn aliliyi, azad bazar iqtisadiyyatı və çoxtərəfli əməkdaşlıq. Bu prinsiplər yalnız daxili siyasətdə deyil, həm də Aİ-nin xarici siyasət strategiyalarında sistemli şəkildə əks olunur.

Normativ gücün mahiyyəti yalnız bu dəyərlərin bəyan edilməsində deyil, onların institusional mexanizmlər vasitəsilə ixrac olunmasındadır. Bu baxımdan, Aİ-nin təsir mexanizmləri strukturlaşdırılmış və çoxsəviyyəli xarakter daşıyır. Xüsusilə "şərtlilik" (conditionality) və "normativ sosiallaşma" (socialization) mexanizmləri bu prosesdə əsas rol oynayır (Schimmelfennig və Sedelmeier, 2004; Schimmelfennig, 2021).

Aİ-nin tərəfdaş ölkələrdə demokratik təsisatların inkişafına təsiri birbaşa deyil, dolayı yolla və mərhələli şəkildə həyata keçirilir. Bu təsir müxtəlif mexanizmlərin qarşılıqlı əlaqəsi nəticəsində formalaşır və uzunmüddətli institusional transformasiyaya gətirib çıxarır (Manners, 2019).

Şərtlilik Aİ-nin ən effektiv alətlərindən biri hesab olunur. Bu mexanizmə əsasən, tərəfdaş ölkələr Aİ ilə iqtisadi, siyasi və ya institusional əməkdaşlıqdan faydalanmaq üçün müəyyən demokratik standartlara cavab verməlidir. Bu standartlar seçki azadlığı, məhkəmə müstəqilliyi, korrupsiyaya qarşı mübarizə və insan hüquqlarının qorunmasını əhatə edir.

Şərtlilik mexanizmi xüsusilə üzvlük perspektivi olan ölkələrdə daha güclü təsir göstərir. Çünki bu halda islahatların həyata keçirilməsi konkret və cəlbedici nəticə – Aİ-yə üzvlük ilə əlaqələndirilir. Bu isə siyasi elitaları və dövlət institutlarını dərin struktur islahatlarına təşviq edir.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Aİ demokratik təsisatların inkişafını dəstəkləmək üçün geniş maliyyə və texniki yardım proqramları həyata keçirir. Bu proqramlar çərçivəsində seçki sistemlərinin təkmilləşdirilməsi, dövlət idarəçiliyinin modernləşdirilməsi, məhkəmə sisteminin gücləndirilməsi və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində layihələr maliyyələşdirilir (Börzel və Risse, 2021).

Bu cür dəstək yalnız maddi resurslarla məhdudlaşmır, eyni zamanda, institusional bilik və idarəetmə təcrübəsinin ötürülməsi də baş verir. Bu isə uzunmüddətli perspektivdə demokratik institutların dayanıqlığını artırır.

Normativ sosiallaşma prosesi Aİ ilə əməkdaşlıq edən ölkələrin tədricən Avropa dəyərlərini qəbul etməsini və onların daxili siyasi sistemə inteqrasiya etməsini ifadə edir. Bu proses yalnız hüquqi islahatlarla deyil, həm də siyasi mədəniyyətin dəyişməsi ilə müşayiət olunur.

Aİ-nin normativ gücünün ən uğurlu tətbiq sahələrindən biri Mərkəzi və Şərqi Avropa ölkələridir. Bu ölkələrdə kommunist rejimlərinin süqutundan sonra demokratik institutların formalaşdırılması prosesi Aİ ilə inteqrasiya perspektivi ilə sıx bağlı olmuşdur. Məsələn, Polşa və Macarıstan Aİ-yə üzvlük prosesində genişmiqyaslı institusional islahatlar həyata keçirmiş, məhkəmə sisteminin müstəqilliyini gücləndirmiş və demokratik idarəetmə standartlarını tətbiq etmişdir. Bu transformasiya Aİ-nin şərtlilik siyasətinin və normativ təsirinin effektivliyini nümayiş etdirir (Vachudova, 2005). Lakin qeyd etmək lazımdır ki, son illərdə bəzi bu ölkələrdə demokratik geriləmələr müşahidə olunur ki, bu da normativ gücün davamlılığı ilə bağlı suallar yaradır.

Aİ-nin təsiri Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də müşahidə olunur. Bu proqram vasitəsilə Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna kimi ölkələrdə demokratik institutların inkişafı təşviq edilir. Məsələn, Gürcüstanda korrupsiyaya qarşı mübarizə sahəsində mühüm irəliləyişlər əldə edilmiş, dövlət

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

idarəçiliyində şəffaflıq artırılmış və seçki sistemində islahatlar həyata keçirilmişdir. Bununla belə, bu regionda Aİ-nin təsiri Mərkəzi Avropa ilə müqayisədə daha zəifdir, çünki üzvlük perspektivi qeyri-müəyyəndir və daxili siyasi faktorlar daha güclü rol oynayır.

Aİ-nin normativ güc konsepsiyası geniş şəkildə qəbul olunsa da, onun effektivliyi ilə bağlı müəyyən tənqidlər mövcuddur. Əsas tənqidlərdən biri Aİ-nin siyasətində ikili standartların mövcud olmasıdır, bəzi hallarda strateji və iqtisadi maraqlar demokratik dəyərlərdən üstün tutulur. Bundan əlavə, tərəfdaş ölkələrdə daxili siyasi iradənin zəif olması normativ təsirin effektivliyini azaldır. Geosiyasi rəqabət, xüsusilə digər böyük güclərin təsiri də Aİ-nin normativ təsir imkanlarını məhdudlaşdırır (Hyde-Price, 2006). Eyni zamanda, normativ sosiallaşma prosesi uzunmüddətli və qeyri-xətti xarakter daşıdığından, onun nəticələri hər zaman sabit və davamlı olmur.

Nəticə etibarilə, Avropa İttifaqı normativ güc kimi beynəlxalq münasibətlər sistemində mühüm və unikal rol oynayır. Onun əsas təsir mexanizmləri – şərtlilik, maliyyə dəstəyi və normativ sosiallaşma tərəfdaş ölkələrdə demokratik təsisatların formalaşmasına və inkişafına əhəmiyyətli töhfə verir. Xüsusilə üzvlük perspektivi olan ölkələrdə bu təsir daha güclü və sistemli xarakter daşıyır. Bununla belə, Aİ-nin normativ gücünün effektivliyi daxili siyasi faktorlar və beynəlxalq mühitdən asılı olaraq dəyişir. Beləliklə, Aİ-nin normativ gücü müasir beynəlxalq münasibətlərdə demokratiyanın təşviqi üçün mühüm alət olmaqla yanaşı, onun davamlılığı və effektivliyi üçün həm daxili, həm də xarici amillərin uyğunluğu zəruridir.

## Ədəbiyyat

1. Börzel, T. A., & Risse, T. (2021). *From the Euro to the Schengen Crises: European Integration Theories,*

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

*Politicization, and Identity Politics.* Cambridge University Press.
2. Hyde-Price, A. (2006). Normative Power Europe: A Realist Critique. *Journal of European Public Policy.*
3. Manners, I. (2002). Normative Power Europe: A Contradiction in Terms? *Journal of Common Market Studies.*
4. Manners, I. (2019). Normative Power Europe Reconsidered: Beyond the Crossroads. *Journal of European Integration*.
5. Schimmelfennig, F. (2021). Rebordering Europe: External Boundaries and Integration in the European Union. *Journal of European Public Policy.*
6. Schimmelfennig, F., & Sedelmeier, U. (2004). Governance by Conditionality: EU Rule Transfer to the Candidate Countries. *Journal of European Public Policy.*
7. Smith, K.E. (2020). *European Union Foreign Policy in a Changing World.* Polity Press.
8. Vachudova, M.A. (2005). *Europe Undivided: Democracy, Leverage, and Integration After Communism.* Oxford University Press.

**Yeganə İsgəndərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https:orcid.org/0000-0002-6125-9062
yegane.isgandarova@adpu.edu.az

# Sosial medianın gənclərə təsiri

***Açar sözlər:*** *media, informasiya, inkişaf, mübadilə, vasitə*
***Keywords:*** *media, information, development, exchange, tool*

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı sosial medianın cəmiyyət həyatında mühüm yer tutmasına səbəb olmuşdur (Castells, 2010). Xüsusilə gənclər sosial şəbəkələrin ən aktiv istifadəçiləri hesab olunur. Instagram, TikTok və Facebook kimi platformalar gənclərin gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir (Boyd, 2014). Sosial media həm ünsiyyət, həm məlumat mübadiləsi, həm də əyləncə vasitəsi kimi çıxış edir. Bu tezisin məqsədi sosial medianın gənclərə göstərdiyi təsirləri araşdırmaq, onun müsbət və mənfi tərəflərini təhlil etmək və bu sahədə mövcud problemlərə diqqət yetirməkdir.

Sosial media internet üzərindən insanların bir-biri ilə əlaqə qurmasına, məlumat paylaşmasına və müxtəlif məzmunlar yaratmasına imkan verən platformalar toplusudur (Jenkins, 2006). Bu platformalar ənənəvi mediadan fərqli olaraq interaktivlik, sürət və əlçatanlıq kimi xüsusiyyətləri ilə seçilir.Tədqiqatçılara görə, sosial media yalnız kommunikasiya vasitəsi deyil, həm də sosial mühit formalaşdıran bir sistemdir (Couldry, 2012). Gənclər burada öz fikirlərini ifadə edir, yeni dostluqlar qurur və müxtəlif sosial qruplara qoşulurlar. Bu isə onların sosiallaşma prosesinə birbaşa təsir göstərir. Sosial medianın gənclərə təsiri bir çox hallarda müsbət qiymətləndirilir.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 70-72
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 70-72
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

İlk növbədə, bu platformalar geniş informasiya əldə etmə imkanları yaradır (Shirky, 2008). Gənclər istənilən mövzu üzrə məlumatı sürətli və rahat şəkildə əldə edə bilirlər. Digər mühüm məqam təhsil imkanlarının genişlənməsidir. Sosial media vasitəsilə müxtəlif tədris materiallarına çıxış əldə etmək, onlayn kurslarda iştirak etmək və yeni biliklər qazanmaq mümkündür (Livingstone, 2008). Bu da gənclərin intellektual inkişafına müsbət təsir göstərir. Bundan əlavə, sosial media yaradıcılığın inkişafına da şərait yaradır. Gənclər foto, video və digər məzmunlar paylaşaraq öz bacarıqlarını nümayiş etdirə bilirlər (Boyd, 2014). Bununla yanaşı, sosial medianın bir sıra mənfi təsirləri də mövcuddur. Ən ciddi problemlərdən biri asılılıqdır. Gənclər uzun müddət sosial şəbəkələrdə vaxt keçirərək real həyat fəaliyyətlərindən uzaqlaşa bilirlər (Valkenburg & Peter, 2011). Digər mühüm problem psixoloji təsirlərlə bağlıdır. Sosial mediada başqaları ilə müqayisə, bəyənmə sayına həddindən artıq önəm verilməsi gənclərdə özünə inamsızlıq, stress və hətta depressiya yarada bilər (Livingstone, 2008). Həmçinin, sosial mediada yayılan saxta məlumatlar (fake news) gənclərin düzgün informasiya əldə etməsinə mane olur və onların dünyagörüşünün yanlış formalaşmasına səbəb ola bilər (Castells, 2010). Sosial media gənclərin davranış və düşüncə tərzinə də ciddi təsir göstərir. Ünsiyyət formaları dəyişir, virtual əlaqələr real münasibətlərin yerini qismən tutur (Jenkins, 2006). Bu isə sosial bacarıqların zəifləməsinə səbəb ola bilər. Eyni zamanda, sosial media gənclərin dəyərlər sisteminə də təsir edir. Populyarlıq, görünüş və sosial status kimi anlayışlar ön plana çıxır (Boyd, 2014). Bu da bəzən yanlış prioritetlərin formalaşmasına gətirib çıxarır.

Nəticə olaraq qeyd etmək olar ki, sosial media gənclərin həyatında mühüm rol oynayan amillərdən biridir. Onun həm müsbət, həm də mənfi təsirləri mövcuddur. Sosial media düzgün istifadə edildikdə təhsil, ünsiyyət və inkişaf baxımından faydalı

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

vasitə ola bilər. Lakin nəzarətsiz və həddindən artıq istifadə müxtəlif problemlərə səbəb olur. Bu baxımdan, gənclərin media savadlılığının artırılması və sosial mediadan balanslı istifadə vərdişlərinin formalaşdırılması vacibdir (Livingstone, 2008).

## Ədəbiyyat

1. Boyd, D. (2014). *It's Complicated: The Social Lives of Networked Teens*. Yale University Press.
2. Castells, M. (2010). *The Rise of the Network Society* (2nd ed.). Wiley-Blackwell.
3. Couldry, N. (2012). *Media, Society, World*. Polity Press.
4. Jenkins, H. (2006). *Convergence Culture*. NYU Press.
5. Livingstone, S. (2008). *New Media & Society*, *10*(3), 393–411.
6. Shirky, C. (2008). *Here comes everybody*. Penguin Press.
7. Valkenburg, P.M., & Peter, J. (2011). *Journal of Adolescent Health*, *48*(2), 121–127.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 73-77
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 73-77
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Ayşən Abdullayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-9352-5322
aysen.abdullayeva.93@mail.ru

# Təlim prosesində diqqətin inkişafının nəzəri və praktik aspektləri

***Açar sözlər:*** *diqqət, ixtiyari diqqət, təlim prosesi, müəllim strategiyaları, psixoloji diaqnostika, sosial-emosional inkişaf*
***Keywords:*** *attention, voluntary attention, learning process, teacher strategies, psychological diagnostics, social-emotional development*

Müasir təhsil mühitində şagirdlərin diqqətinin davamlılığının azalması, yayınma hallarının artması və öyrənmə motivasiyasının zəifləməsi təlim prosesinin effektivliyinə ciddi təsir göstərir. Bu tezis təlim prosesində diqqətin inkişafının nəzəri və praktik aspektlərini kompleks şəkildə araşdırır. Tədqiqat göstərir ki, diqqətin formalaşması yalnız fərdi psixoloji xüsusiyyətlərlə deyil, həm də pedaqoji mühit, müəllim strategiyaları və sosial-emosional amillərlə sıx bağlıdır. Nəzəri yanaşmalar diqqətin idrak proseslərini tənzimləyən mexanizm olduğunu təsdiqləyir, praktik yanaşmalar isə onun məqsədyönlü inkişaf etdirilə bilən bacarıq olduğunu göstərir. Müəllimin strukturlaşdırılmış təlim strategiyaları, psixoloqun diaqnostik və korreksiyaedici fəaliyyəti, həmçinin, valideynlərin iştirakı diqqətin davamlı inkişafında həlledici rol oynayır.

Diqqət təlim prosesinin psixoloji əsasını təşkil edən mühüm idrak mexanizmidir. Şagirdin informasiyanı qəbul etməsi, mənimsəməsi və tətbiq etməsi onun diqqətini nə dərəcədə cəmləşdirə bilməsindən asılıdır. Müasir dövrdə rəqəmsal

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

təsirlərin artması, informasiya axınının intensivləşməsi və sosial-emosional problemlər diqqətin dağınıq xarakter almasına səbəb olur. Bu isə məktəbdə akademik nailiyyətlərin aşağı düşməsinə və motivasiya problemlərinə gətirib çıxarır.

Diqqət müstəqil psixi proses deyil, qavrayış, yaddaş və təfəkkürün effektivliyini təmin edən tənzimləyici sistemdir. Təlim prosesində diqqətin məqsədyönlü şəkildə inkişaf etdirilməsi pedaqoji fəaliyyətin əsas istiqamətlərindən biri olmalıdır. Bu tezisin məqsədi diqqətin inkişafının nəzəri əsaslarını təhlil etmək, həmçinin, təlim mühitində tətbiq olunan praktik mexanizmləri sistemləşdirməkdir.

*Diqqətin nəzəri əsasları və təlimdə rolu.* Psixoloji ədəbiyyatda diqqət üç əsas formada izah olunur: qeyri-ixtiyari, ixtiyari və postixtiyari diqqət. Qeyri-ixtiyari diqqət xarici stimulların təsiri ilə yaranır və xüsusilə kiçik yaşlı məktəblilərdə üstünlük təşkil edir. İxtiyari diqqət məqsəd və iradə ilə idarə olunur və təlim prosesində əsas əhəmiyyət kəsb edir. Postixtiyari diqqət isə maraq və daxili motivasiya nəticəsində davamlı xarakter alır.

Diqqətin struktur xüsusiyyətlərinə davamlılıq, həcm, paylanma və keçid daxildir. Bu xüsusiyyətlər təlim fəaliyyətində müxtəlif formalarda təzahür edir. Məsələn, şagirdin 20–25 dəqiqə ərzində tapşırıq üzərində fokuslanması davamlılığı, həm dinləyib, həm yazması isə diqqətin paylanmasını göstərir. Bu xüsusiyyətlərin inkişafı mərhələli və sistemli pedaqoji təsir tələb edir.

Diqqətin zəifləməsi bir sıra sosial və fərdi amillərlə bağlıdır. Ailə mühitində emosional gərginlik və nizamsızlıq, məktəbdə strukturun olmaması, müəllim-şagird münasibətlərində gərginlik diqqətin sabitliyinə mənfi təsir göstərir. Fərdi-psixoloji amillər – motivasiya çatışmazlığı, emosional qeyri-sabitlik, impulsivlik və yorğunluq da diqqətin keyfiyyətini azaldır.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Rəqəmsal mühitdə uzunmüddətli ekran istifadəsi diqqətin səthi və tez dəyişən xarakter almasına səbəb ola bilər.

Bu faktorların kompleks təhlili müəllim və psixoloqun birgə fəaliyyətinin əsasını təşkil edir.

*Müəllimin rolu və pedaqoji mexanizmlər.* Müəllim diqqətin inkişafında əsas praktik fiqurdur. Təlimin strukturlaşdırılması, aydın qaydaların müəyyənləşdirilməsi və mərhələli tapşırıq sistemi diqqətin sabitliyini gücləndirir. Vizual materiallardan istifadə, fəaliyyət növlərinin dəyişdirilməsi və interaktiv metodlar şagirdlərin marağını qoruyur və ixtiyari diqqəti stimullaşdırır.

Diqqət zəiflədikdə müəllim emosional reaksiya vermək əvəzinə, dərs prosesini yenidən təşkil etməli, tapşırıqları daha kiçik mərhələlərə bölməli və motivasiyaedici üsullardan istifadə etməlidir. Müsbət möhkəmləndirmə və refleksiya mərhələsi şagirdin öz diqqətini şüurlu şəkildə idarə etməsinə şərait yaradır.

*Psixoloqun rolu və inkişaf proqramları.* Məktəb psixoloqu diqqətin diaqnostikası və korreksiyasında mühüm rol oynayır. Diaqnostika mərhələsində müşahidə, psixoloji testlər və müəllim-valideyn müsahibələri vasitəsilə diqqətin səviyyəsi və zəif tərəfləri müəyyən edilir.

Korreksiya mərhələsində diqqət məşqləri, özünüidarə bacarıqları, emosional tənzimləmə və sosial-emosional inkişaf proqramları tətbiq edilir. Qrup və fərdi məşğələlər vasitəsilə şagirdlərə diqqəti planlaşdırmaq və idarə etmək bacarığı aşılanır. Müəllim və psixoloqun əməkdaşlığı diqqətin inkişafının davamlı və sistemli olmasını təmin edir.

Diqqətin inkişafı sosial-emosional bacarıqlarla sıx bağlıdır. Empatiya, məsuliyyət hissi və emosiyaların idarə olunması şagirdin təlim fəaliyyətinə fokuslanmasını asanlaşdırır. Sinifdə əməkdaşlıq və qarşılıqlı hörmət mühiti diqqətin sabitliyini artırır. Sosial-emosional öyrənmə proqramlarının tədrisə

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

inteqrasiyası diqqətin inkişafını dəstəkləyən davamlı sistem yaradır.

Aparılan nəzəri təhlil və praktik yanaşmaların ümumiləşdirilməsi göstərir ki, təlim prosesində diqqətin inkişafı təsadüfi deyil, məqsədyönlü və sistemli pedaqoji-psixoloji fəaliyyətin nəticəsidir. Diqqət idrak fəaliyyətinin əsas tənzimləyici mexanizmi kimi şagirdin akademik nailiyyətlərini, öyrənmə motivasiyasını və ümumi psixi inkişafını birbaşa müəyyənləşdirir. Buna görə də diqqətin formalaşdırılması təhsil sistemində prioritet istiqamətlərdən biri kimi qəbul edilməlidir.

Tədqiqat sübut edir ki, diqqətin inkişafı yalnız şagirdin fərdi xüsusiyyətləri ilə məhdudlaşmır. Bu proses ailə mühiti, məktəb iqlimi, müəllimin pedaqoji ustalığı və psixoloqun elmi əsaslı müdaxilələri ilə sıx əlaqədardır. Xüsusilə ibtidai və orta məktəb mərhələsində diqqətin qeyri-ixtiyari formadan ixtiyari və postixtiyari formaya keçidi sistemli təlim strategiyaları tələb edir. Əgər tədris prosesi strukturlaşdırılmış, motivasiyaedici və yaş xüsusiyyətlərinə uyğun təşkil olunarsa, diqqətin davamlılığı və həcmi əhəmiyyətli dərəcədə artır.

Müəllimin rolu bu prosesdə həlledicidir. O, diqqətin inkişafı üçün uyğun psixoloji mühit yaradır, aydın qaydalar və gözləntilər müəyyənləşdirir, fəaliyyət növlərini məqsədli şəkildə dəyişdirir və müsbət möhkəmləndirmə tətbiq edir. Diqqətin zəifləməsi hallarına emosional reaksiya vermək əvəzinə, strukturlaşdırma və motivasiya mexanizmlərindən istifadə etmək daha effektiv nəticə verir. Bu yanaşma şagirdin öz diqqətini şüurlu şəkildə idarə etməsinə və məsuliyyət hissinin formalaşmasına kömək edir.

Məktəb psixoloqunun fəaliyyəti isə diqqətin diaqnostikası və korreksiyasında mühüm əhəmiyyət daşıyır. Diqqət problemlərinin vaxtında müəyyən edilməsi, fərdi inkişaf proqramlarının hazırlanması və sosial-emosional bacarıqların gücləndirilməsi uzunmüddətli müsbət nəticələr verir. Müəllim

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

və psixoloqun əməkdaşlığı diaqnostika, müdaxilə və monitorinq mərhələlərində ardıcıl tətbiq edildikdə diqqət inkişafı daha davamlı və sistemli xarakter alır.

Bununla yanaşı, sosial-emosional öyrənmə proqramlarının təlim prosesinə inteqrasiyası diqqətin möhkəmlənməsinə əlavə dəstək verir. Empatiya, özünüidarə və emosional tənzimləmə bacarıqları inkişaf etdikcə şagirdlərin təlimə fokuslanma qabiliyyəti artır, sinifdə əməkdaşlıq və qarşılıqlı hörmət mühiti formalaşır. Bu isə yalnız fərdi akademik nailiyyətləri deyil, bütövlükdə məktəb iqlimini yaxşılaşdırır.

Nəticə olaraq demək olar ki, diqqətin inkişafı təhsil prosesinin keyfiyyət göstəricisidir və onun sistemli şəkildə dəstəklənməsi akademik uğurun, psixoloji sağlamlığın və sosial adaptasiyanın əsas şərtlərindən biridir. Effektiv nəticə əldə etmək üçün pedaqoji strategiyalar, psixoloji dəstək mexanizmləri və valideyn əməkdaşlığı vahid model çərçivəsində birləşdirilməlidir. Gələcək tədqiqatlar diqqətin inkişafı üzrə tətbiq olunan proqramların uzunmüddətli effektivliyinin qiymətləndirilməsinə və milli təhsil sisteminə uyğun modellərin hazırlanmasına yönəldilə bilər.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 78-81
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 78-81
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Hürü Mollayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0003-2525-033X
mollayevahuru@gmail.com

# İnklüziv təhsilin idarə olunmasında müəllimin rolu

***Açar sözlər:*** *inklüziv təhsil, sinfin effektiv idarə olunması, müəllimin peşəkar fəaliyyəti, diferensiallaşdırılmış təlim, inklüziv təlim mühiti*
***Keywords:*** *inclusive education, effective classroom management, teacher professional activity, differentiated learning, inclusive learning environment*

İnklüziv təhsil, fiziki, psixoloji və sosial xüsusiyyətlərindən asılı olmayaraq, bütün uşaqların vahid təhsil mühitində birgə təhsil almasını nəzərdə tutan müasir pedaqoji yanaşmadır. Bu model hər bir şagird üçün təhsil almaq hüququnun bərabərliyinin təmin edilməsi, onların cəmiyyətə inteqrasiyası və fərdi potensiallarının inkişafı üçün şərait yaradır. Müxtəlif təhsil ehtiyacları olan uşaqların birlikdə təhsil aldığı inklüziv siniflərdə təhsil prosesinin effektiv təşkili və sinif otağının düzgün idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, müəllimin rolu inklüziv təhsil mühitinin yaradılmasında əsas amillərdən biri hesab olunur.

İnklüziv sinifdə müəllim təhsil prosesinin əsas təşkilatçısı və mentoru kimi çıxış edir. Onların əsas vəzifələrindən biri hər bir şagird üçün əlverişli, təhlükəsiz və dəstəkləyici təlim mühiti yaratmaqdır. İnklüziv siniflərdə şagirdlərin fərdi xüsusiyyətləri, öyrənmə tempi, bacarıqları və ehtiyacları fərqli olduğundan, müəllim təhsil prosesini bu fərqləri nəzərə alaraq planlaş-

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 78-81
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 78-81
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

dırmalıdır. Buna nail olmaq üçün müəllim təhsil prosesini təşkil edərkən şagirdlərin fərdi imkanlarını nəzərə almalı və onların fəal iştirakını təmin edən metod və üsullardan istifadə etməlidir. Müəllimin təşkilati rolu yalnız dərslərin keçirilməsi ilə məhdudlaşmır. Onlar, həmçinin, sinifdə müsbət psixoloji və sosial mühitin yaradılmasına diqqət yetirməlidirlər. Onlar şagirdlər arasında qarşılıqlı hörmət, tolerantlıq və əməkdaşlığı inkişaf etdirməli və hər bir şagirdin sinif üzvü kimi dəyərli hiss etməsinə kömək etməlidirlər. Bu yanaşma şagirdin özünəhörmətinə müsbət təsir göstərir, onların sosial bacarıqlarını inkişaf etdirir və təlim prosesində daha fəal iştirakını təşviq edir. Eyni zamanda, müəllim sinif intizamının qorunmasına, dərslərin düzgün planlaşdırılmasına və təlim prosesini ardıcıl olaraq həyata keçirməsinə cavabdehdir. Müəllim dərslər zamanı şagirdin diqqətini və marağını qorumağa çalışmalı və dərsləri onların fərqli təlim üslublarına uyğun təşkil etməlidir. Beləliklə, müəllimin təşkilatçılıq bacarıqları inklüziv sinifdə təhsil prosesinin effektiv idarə olunmasına, bütün şagirdlərin təhsil prosesində fəal iştirakına və onların hərtərəfli inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

İnklüziv təhsil mühitində müəllimin pedaqoji və metodoloji fəaliyyəti effektiv sinif idarəçiliyində mühüm rol oynayır. Təlim prosesini təşkil edərkən müəllim şagirdlərin fərdi xüsusiyyətlərini, inkişaf səviyyəsini və təlim ehtiyaclarını nəzərə almalıdır. İnklüziv siniflərdə şagirdlərin bilik səviyyələri və öyrənmə sürətləri müxtəlif olduğundan, müəllimlər bu fərqləri nəzərə alan tədris metodları və strategiyaları seçməli və tətbiq etməlidirlər. Müəllimin pedaqoji fəaliyyəti şagirdlərin təlim prosesində fəal iştirakını təmin etməyə yönəlmişdir. Buna nail olmaq üçün müəllimlər fərqli tədris metodlarından istifadə etməli, tədris materiallarını şagirdlərin qabiliyyətlərinə uyğunlaşdırmalı və müxtəlif didaktik vasitələrdən istifadə etməlidirlər. Qrup işi, cütlük işi, layihə işi və interaktiv tapşırıqlar kimi

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

metodlar həm akademik, həm də sosial bacarıqların inkişafına töhfə verir.

Müəllimlər tədris prosesində müasir pedaqoji yanaşmalardan istifadə etməli və öyrənməni daha əlçatan və cəlbedici etməyə çalışmalıdırlar. Vizual vəsaitlərin, texnoloji vasitələrin və müxtəlif tədris strategiyalarının istifadəsi şagirdlərin dərsə marağını artırır və onların öyrənmə prosesini asanlaşdırır. Beləliklə, düzgün seçilmiş pedaqoji və metodoloji fəaliyyətlər inklüziv siniflərdə təhsil prosesinin keyfiyyətinin artırılması və şagirdlərin hərtərəfli inkişafı üçün şərait yaradır. İnklüziv siniflərdə müəllim təkcə təhsil prosesinin təşkilatçısı deyil, həm də şagirdlərin sosial və psixoloji inkişafını dəstəkləyən əsas iştirakçılardan biridir. Müəllim sinifdə müsbət və təhlükəsiz psixoloji mühit, eləcə də bütün şagirdlərin dəyərli və qəbul edilmiş hiss etdikləri şərait yaratmalıdır. Bu baxımdan müəllim şagirdlər arasında qarşılıqlı hörmət, tolerantlıq və əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirməlidir. Müəllim xüsusi təhsil ehtiyacı olan şagirdlərin sinif mühitinə uyğunlaşmasına kömək edir, onların sosial bacarıqlarının inkişafını dəstəkləyir və özünəinamın artırılması üçün şərait yaradır. Dəstəkləyici müəllim münasibəti şagirdlərin öyrənməyə marağına və sinif otağına daha asan inteqrasiyasına müsbət təsir göstərir. Müəllimin sosial və psixoloji fəaliyyətləri inklüziv sinif otağında sağlam münasibətlərin qurulmasında və şagirdlərin hərtərəfli inkişafında mühüm rol oynayır. Monitorinq nəticələri müəllimlərə şagirdlərin inkişaf səviyyələrini müəyyən etməyə və təlim prosesini ehtiyaclarına uyğun olaraq təşkil etməyə kömək edir. Bu yanaşma inklüziv sinifdə hər bir şagirdin inkişafını dəstəkləyir və daha effektiv təlimə kömək edir.

İnklüziv təhsil mühitində müəllimin rolu yalnız təlim prosesini təşkil etməklə məhdudlaşmır, həm də müxtəlif mütəxəssislər və valideynlərlə əməkdaşlığı əhatə edir. İnklüziv sinifdə təlim prosesini daha effektiv təşkil etmək üçün müəllimlər

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 78-81
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 78-81
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

müntəzəm olaraq məktəb rəhbərliyi, psixoloq, nitq terapevti, xüsusi təhsil mütəxəssisi və digər dəstək mütəxəssisləri ilə əməkdaşlıq etməlidirlər. Bu cür əməkdaşlıq şagirdlərin fərdi ehtiyaclarını daha dəqiq müəyyən etməyə və onların inkişafına uyğun təlim strategiyalarını seçməyə kömək edir. Valideynlərlə sıx əlaqə saxlamaq da vacibdir. Valideynlərlə müntəzəm görüşlər və məlumat mübadiləsi şagirdlərin təlim prosesində üzləşdikləri çətinlikləri müəyyən etməyə və həll yolları tapmağa kömək edir. Valideynlərin təlim prosesində iştirakı şagirdlərin həm akademik, həm də sosial inkişafına müsbət təsir göstərir. Müəllimlərin müxtəlif maraqlı tərəflərlə əməkdaşlığı inklüziv təhsil mühitinin yaradılmasına, şagirdlərin təlim prosesinə daha uğurlu inteqrasiyasına və effektiv sinif idarəçiliyinə əhəmiyyətli dərəcədə töhfə verir.

Buna görə də, inklüziv təhsil müəssisələrində müəllimin effektiv sinif idarəçiliyində rolu xüsusilə vacibdir. Təhsil prosesinin təşkilatçısı olaraq, müəllim şagirdlərin fərdi xüsusiyyətlərini və təhsil ehtiyaclarını nəzərə alaraq dərsi planlaşdırmalı və inklüziv və dəstəkləyici təlim mühiti yaratmalıdır. Eyni zamanda, müəllim müxtəlif tədris metodlarından istifadə etməli, şagirdlərin inkişafını müntəzəm olaraq qiymətləndirməli və onların təlim prosesində fəal iştirakını təmin etməlidir. Məktəb rəhbərliyi, valideynlər və digər mütəxəssislərlə əməkdaşlıq da inklüziv təhsil mühitinin yaradılmasında mühüm rol oynayır. Beləliklə, müəllimin peşəkar fəaliyyəti və müvafiq idarəetmə bacarıqları inklüziv siniflərdə təhsilin keyfiyyətinin yüksəldilməsi və bütün şagirdlərin uğurlu inkişafı üçün şərait yaradır.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 82-85
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 82-85
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Nəzrin Zeynalova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-7911-0373
nazrinzeynalova2002@gmail.com

# Müasir təhsildə interaktiv təlim metodları və onların tətbiqi üsulları

***Açar sözlər:*** *interaktiv təlim, təlim metodları, fəal öyrənmə, qrup işi, problem əsaslı təlim, müasir təhsil*
***Keywords:*** *interactive learning, teaching methods, active learning, group work, problem-based learning, modern education*

Müasir təhsil sistemində təlim prosesinin effektivliyinin artırılması və şagirdlərin fəallığının təmin olunması üçün interaktiv təlim metodlarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. İnteraktiv təlim müəllim və şagird arasında qarşılıqlı əməkdaşlığa əsaslanan, şagirdlərin aktiv iştirakını təmin edən və onların müstəqil düşünmə bacarıqlarını inkişaf etdirən pedaqoji yanaşmadır. Tezisdə interaktiv təlim metodlarının mahiyyəti, əsas xüsusiyyətləri və müasir təhsil sistemində tətbiq üsulları araşdırılır. Həmçinin, bu metodların şagirdlərin yaradıcı və tənqidi düşünmə bacarıqlarının formalaşmasına təsiri təhlil olunur.

"İnteraktiv" anlayışı dialoq, qarşılıqlı ünsiyyət və birgə fəaliyyət mənasını ifadə edir. İnteraktiv təlim üsulları tədris prosesini daha fəal və dinamik edir, dərsi şagirdlərin aktiv fəaliyyət göstərdiyi bir mühitə çevirir. Bu yanaşma şagirdlərin dərsdə iştirakını maksimum səviyyədə artırır və onların öyrənmə prosesində fəal rol oynamasını təmin edir. İnteraktiv təlim eyni

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

zamanda şagirdlərdə formalaşdırılan müxtəlif bacarıq və vərdişlərin bütöv sistemi kimi dəyərləndirilir.

Bu metodun tətbiqi zamanı hər hansı mövzu ilə bağlı həm fəndaxili, həm də fənlərarası əlaqələrdən, eləcə də real həyatda baş verən hadisələrdən müqayisəli şəkildə istifadə olunması vacibdir. Belə əlaqələndirmələr elə qurulmalıdır ki, şagirdlərin əldə etdikləri biliklər daha da genişlənsin və möhkəmlənsin, fikir ardıcıllığı pozulmasın və hər bir fikir digərini tamamlasın.

Bu prosesdə müəllimin mövzular və hadisələr arasında inteqrasiya yaratmaq bacarığı mühüm əhəmiyyət kəsb edir. Bunun üçün müəllim geniş biliklərə malik olmalı, yüksək peşəkarlıq və metodik hazırlıq nümayiş etdirməlidir. Eyni zamanda, şagirdlərin əldə etdikləri bilikləri praktik fəaliyyətdə tətbiq etmələri də təlim prosesinin səmərəliliyini artıran vacib amillərdən biridir.

Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərin yalnız bilik əldə etməsini deyil, həm də onların müstəqil düşünmə, tənqidi yanaşma və problem həll etmə bacarıqlarının inkişafını təmin etməkdir. Bu məqsədlərə nail olmaq üçün ənənəvi təlim metodları ilə yanaşı interaktiv təlim metodlarından geniş istifadə olunur.

İnteraktiv təlim şagirdlərin dərs prosesində passiv dinləyici deyil, aktiv iştirakçı kimi çıxış etməsini təmin edir. Bu yanaşma şagirdlərin dərsə marağını artırır, onların əməkdaşlıq bacarıqlarını inkişaf etdirir və əldə olunan biliklərin daha möhkəm mənimsənilməsinə şərait yaradır.

İnteraktiv təlim metodlarının əsas xüsusiyyətləri aşağıdakılardır:

- şagird fəallığının artırılması;
- əməkdaşlığa əsaslanan öyrənmə mühiti;
- müzakirə və fikir mübadiləsi;
- tənqidi və yaradıcı düşüncənin inkişafı;
- problemlərin birgə həlli.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

İnteraktiv təlim metodlarının tətbiqi təlim prosesində bir sıra üstünlüklər yaradır. Bu metodlar şagirdlərin dərsə marağını artırır, onların fəallığını və motivasiyasını yüksəldir. Bundan əlavə, şagirdlər arasında əməkdaşlıq mühiti formalaşır və onların sosial bacarıqları inkişaf edir.

Eyni zamanda, interaktiv metodlar şagirdlərin əldə etdikləri bilikləri praktik fəaliyyətlə əlaqələndirməsinə imkan yaradır. Bu isə biliklərin daha səmərəli mənimsənilməsinə və uzun müddət yadda saxlanılmasına səbəb olur.

İnteraktivlik təlim prosesində mövzu ilə bağlı şagirdlərə daha çox bilik, məlumat, vərdişlər kompleksi aşılamaq deməkdir. Bu təlimin qarşısında duran əsas məqsəd dərs prosesində qarşılıqlı əlaqə zəminində şagirdləri fəallaşdırmaqdan ibarətdir.

Yeni təlim texnologiyaları bir sıra xüsusiyyətləri ilə ənənəvi təlim metodlarından fərqlənir: şagirdlərin tədqiqat fəaliyyətinə cəlb edilmələri, müəllim tərəfindən problemli şəraitin yaradılması, biliklərin şagirdlər tərəfindən müstəqil əldə edilməsi və s.

Müasir təlim metodları ilə işləmək üçün aşağıdakıların nəzərə alınmasının böyük əhəmiyyəti vardır:

1.Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi;

2.Fəal dərsin mərhələləri;

3.Fəal dərsin strukturu.

Fəal təlim metodları ənənəvi təlim metodlarını tamamilə inkar etmir. Çünki fəal təlim metodlarının ayrı-ayrı ünsürləri ənənəvi təlim metodlarında da mövcud olmuşdur. Fəal təlim metodlarına tam keçid isə nisbətən uzun sürən prosesdir. Bu, təkcə ümumtəhsil məktəblərində fəaliyyət göstərən müəllimlərdən yox, ali məktəblərdə müəllim hazırlığından, gənc müəllimlərin ali məktəblərdə fəal təlim metodlarını necə mənimsəmələrindən, əlaqədar təhsil müəssisələrindən də asılıdır.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Müasir təhsil sistemində interaktiv təlim metodlarının tətbiqi böyük əhəmiyyətə malikdir. Bu metodlar şagirdlərin fəal iştirakını təmin edir, onların yaradıcı və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. İnteraktiv təlim üsullarının dərs prosesində səmərəli şəkildə tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin daha effektiv öyrənməsinə şərait yaradır. Buna görə də müəllimlər müasir pedaqoji yanaşmalar çərçivəsində interaktiv metodlardan geniş şəkildə istifadə etməlidirlər.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 86-89
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 86-89
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Aysun Fərzili**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-0192-8890
aysunfarzili@gmail.com

# "Kitabi-Dədə Qorqud": Qədim türk hikmətinin tərbiyədə rolu

***Açar sözlər:*** *türk ədəbiyyatı, "Kitabi-Dədə Qorqud", atalar sözləri, hikmətli ifadələr, tərbiyə*
***Keywords:*** *Turkish literature, Kitabi-Dede Gorgud, proverbs, wise expressions, moral development*

Qədim türk ədəbiyyatında yer alan hikmətli sözlər, atalar sözləri və məsəllər yalnız ədəbi estetik bəzək və dil zənginliyini əks etdirməklə kifayətlənmir, eyni zamanda, uşaqların mənəvi və əxlaqi tərbiyəsində mühüm vasitə kimi çıxış edir. Belə ifadələr gənc nəsildə düzgün davranış, əxlaqi məsuliyyət, əməksevərlik, hörmət, cəsarət, qonaqpərvərlik və həyat fəlsəfəsi kimi əsas keyfiyyətlərin formalaşmasına töhfə verir. Hər bir hikmətli söz və məsəlin məqsədi, şagirdlərin dünyagörüşünü zənginləşdirmək və onları həyatın müxtəlif sahələrində məntiqi, əxlaqi qərarlar verməyə hazırlamaqdır. Hikmətli ifadələr, həm şəxsi, həm də sosial davranışların tərbiyəsində strategiya rolunu oynayır. Dürüstlük və sözünə sadiqlik kimi keyfiyyətlər, şagirdlərin ətraf mühitdə etibarlı və hörmətli fərdlər kimi formalaşmasına imkan yaradır. Eyni zamanda, əməksevərlik və zəhmət anlayışı onların məsuliyyətli və təşəbbüskar davranış tərzini gücləndirir. Qonaqpərvərlik, xeyirxahlıq və paylaşma kimi dəyərlər isə şagirdlərin sosial bacarıqlarının inkişafına, həmrəylik və empatiya hisslərinin möhkəmlənməsinə xidmət edir. Həyatın keçiciliyi və insanın məhdudiyyətlərini ifadə edən

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

hikmətli sözlər isə onların təvazökar, düşüncəli və əxlaqi prinsiplərə sadiq fərdlər kimi yetişməsini təşviq edir.

"Kitabi-Dədə Qorqud" dastanı bu funksiyanı ən bariz şəkildə əks etdirən nümunələrdən biridir. Dastanda yer alan ifadələr gənc nəsildə ailəyə hörmət, əməksevərlik, məsuliyyət, əməkdaşlıq, ehtiyatlılıq, xeyirxahlıq və həyatın dəyərini bilmək kimi tərbiyəvi keyfiyyətlərin inkişafına xidmət edir.

"Kitabi-Dədə Qorqud" dastanında valideynə hörmət və ailəyə bağlılıq gənc nəslin mənəvi inkişafında əsas prinsiplərdən biri kimi çıxış edir. Dastanda ailə dəyərlərinə sadiqlik və məsuliyyət hissi mühüm əxlaqi borc kimi qəbul olunur. Xüsusilə "Ana haqqı – Tanrı haqqı" (Kitabi-Dədə Qorqud, 2004, s. 195) ifadəsi anaya verilən yüksək qiyməti və bu hörmətin həm dini, həm də mənəvi əsaslarını göstərir. Bu yanaşma valideynə münasibəti müqəddəs bir vəzifə kimi xarakterizə edir.

"Kitabi-Dədə Qorqud"-da şəxsi zəhmət və məsuliyyət məsələləri Oğuz elinin yaşayış tərzinin ayrılmaz tərkib hissəsi kimi təqdim olunur (Kitabi-Dədə Qorqud, 2004). Oğuz cəmiyyətində fərdin statusu onun mənsub olduğu soyla yanaşı, göstərdiyi şəxsi şücaət və çəkdiyi zəhmətlə müəyyən edilir. "Kişi malına qıymayınca adı çıxmaz" (Kitabi-Dədə Qorqud, 2018, s. 5) kəlamı gənclərə aşılayır ki, real nüfuz və ictimai ehtiram fədakarlıq, maddi və mənəvi paylaşımdan keçir. Bu, gənc nəsildə mülkiyyətə bağlılığı deyil, əliaçıqlıq və xalq yolunda xidmət etmək prinsipini formalaşdırır. Eyni zamanda, "At işləyər, ər öyünər" (Kitabi-Dədə Qorqud, 2004, s. 209) ifadəsi zəhmətin nəticəyə transformasiyasını və fərdin öz əməyi ilə qazandığı haqlı qürur hissini vurğulayır. Oğuz elində tənbəllik və hazıra qonmaq mənfi xüsusiyyət kimi pislənilir, zəhmətkeşlik isə ən uca insani keyfiyyət kimi təqdim olunur.

İnsanlararası münasibətlərin düzgün tənzimlənməsi və sosial əməkdaşlıq da dastanın tərbiyəvi sistemində mərkəzi yer tutur. Oğuz elinin köçəri və döyüşkən həyat tərzi fərdlərin bir-birindən

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

asılılığını və kollektiv ruhun gücünü zəruri edirdi (Qumilyov, 2016). Uğurun yalnız təkbaşına deyil, qarşılıqlı dəstəklə mümkün olması ideyası "Atsız kişinin ümidi olmaz" (Kitabi-Dədə Qorqud, 2004, s. 209) ifadəsində öz əksini tapır. Burada "at" simvolu həm bir köməkçi, həm də fərdin sosial mühitdəki gücünü ifadə edir ki, bu da şagirdlərdə komanda işi və birlik hissinin inkişafına təsir göstərir.

Bununla yanaşı, Oğuz elinin çətin və təhlükələrlə dolu coğrafi-siyasi mühiti gənclərdən yüksək ehtiyatlılıq və xarakter analizi tələb edirdi. "Qarı düşmən dost olmaz" (Kitabi-Dədə Qorqud, 2018, s. 5) kəlamı şagirdlərdə strateji düşüncəni və keçmiş təcrübələrdən dərs çıxarmaq bacarığını formalaşdırır. Bu tərbiyəvi funksiya gənclərə yalnız xeyirxahlığı deyil, həm də sosial mühitdə qarşılaşa biləcəkləri çətinliklərə qarşı ayıq-sayıq olmağı, dostu düşməndən fərqləndirmək qabiliyyətini aşılayır. Beləliklə, eposdakı bu hikmətlər gənc nəslin həm daxili mənəviyyatını, həm də xarici mühitlə sağlam münasibətlərini balanslaşdıran kamil bir tərbiyə modelini təqdim edir

Oğuz cəmiyyətində qonaqpərvərlik fərdin mənəvi ucalığını və ailənin sosial nüfuzunu müəyyən edən əsas meyarlardan hesab olunur. Dastanın müqəddiməsində qeyd olunan "Qonağı gəlməyən evlər yıxılsa yaxşıdır" (Kitabi-Dədə Qorqud, 2018, s. 5) kəlamı qonaq qəbul etməyi evin bərəkəti və ailənin varlıq səbəbi kimi qiymətləndirir. Bu yanaşma, qonaqpərvərliyi fərdi bir seçimdən çıxarıb kollektiv bir məsuliyyətə çevirir.

Beləliklə, "Kitabi-Dədə Qorqud" dastanı yalnız əxlaqi və sosial davranışların öyrədilməsi baxımından deyil, həm də gənc nəslin daxili mənəviyyatını, xarici mühitlə sağlam münasibətlərini və strateji düşüncə qabiliyyətlərini tarazlayan kompleks bir tərbiyə modeli kimi qiymətləndirilə bilər. Qeyd etdiyimiz nümunələr sadəcə kiçik bir hissədir. Dastanda təqdim olunan hikmətli ifadələr, uşaqların həm şəxsi, həm də sosial davranışlarını formalaşdırmaq, onları həyatın müxtəlif

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

sahələrində düzgün və əxlaqi qərarlar verməyə hazırlamaq baxımından əvəzsiz və aktual vasitədir.

## Ədəbiyyat

1. *Kitabi-Dədə Qorqud*. (2018). Altun kitab.
2. *Kitabi-Dədə Qorqud*. (2004). Əsil və sadələşdirilmiş mətnlər. Öndər nəşriyyat.
3. Qumilyov, L. (2016). *Qədim türklər*. “Kitab klubu” nəşriyyat evi.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Fidan Mehdiyeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-8621-0699
esoniyeva@gmail.com

# Rus dili dərslərində interaktiv metodlar vasitəsilə ibtidai sinifdə idrak fəallığının inkişafı

***Açar sözlər:*** *idrak fəallığı, interaktiv təlim metodları, rus dili dərsi, ibtidai məktəb, təlim motivasiyası, aktiv təlim metodları*
***Keywords:*** *cognitive activity, interactive learning methods, Russian language lesson, elementary school, learning motivation, active learning methods*

Tezisdə rus dili dərslərində ibtidai sinifdə idrak fəallığının inkişafı problemi araşdırılır. Tədris prosesində interaktiv metodların tətbiqinin şagirdlərin öyrənməyə marağının artırılmasında və motivasiyasının formalaşmasında rolu göstərilir. Cütlərlə və qruplarla iş, didaktik oyunlar, beyin həmləsi, problemli tapşırıqlar və müzakirə kimi metodların tətbiqi imkanları təhlil olunur. Qeyd olunur ki, interaktiv təlim formaları şagirdlərin təfəkkürünün, ünsiyyət bacarıqlarının və müstəqilliyinin inkişafına kömək edir. Nəticədə rus dili fənninin tədrisinin keyfiyyətinin yüksəldilməsində interaktiv metodların səmərəli pedaqoji vasitə olduğu vurğulanır.

Müasir təhsil sistemi yalnız biliklərin ötürülməsinə deyil, həm də şagird şəxsiyyətinin inkişafına, onların idrak maraqlarının, müstəqilliyinin və fəal öyrənmə bacarıqlarının formalaşdırılmasına yönəlmişdir. Bu baxımdan ibtidai məktəbdə şagirdlərin idrak fəallığının inkişafı mühüm vəzifələrdən biri hesab olunur. Məhz bu yaş dövründə təlim motivasiyasının

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

əsasları qoyulur, uşağın öyrənməyə və ətraf aləmi dərk etməyə münasibəti formalaşır.

İdrak fəallığı şagirdlərin yeni biliklər əldə etməyə marağı, təlim fəaliyyətinə aktiv münasibəti, tapşırıqların həllində müstəqillik göstərməsi və təşəbbüskarlığı kimi xarakterizə olunur. İdrak fəallığı nə qədər yüksək olarsa, biliklərin mənimsənilməsi və bacarıqların formalaşması da bir o qədər səmərəli olur.

Rus dili dərslərində idrak fəallığının inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu fənn şagirdlərin nitq mədəniyyətinin formalaşmasında, təfəkkürünün inkişafında və kommunikativ bacarıqlarının inkişafında mühüm rol oynayır. Lakin ənənəvi tədris metodları hər zaman şagirdlərin dərs prosesində fəal iştirakını təmin etmir. Buna görə də şagirdlərin idrak fəaliyyətini aktivləşdirən daha səmərəli təlim metodlarının tətbiqinə ehtiyac yaranır. Bu baxımdan interaktiv təlim metodları xüsusi əhəmiyyət kəsb edir.

İnteraktiv təlim şagirdlərin bir-biri ilə və müəllimlə fəal qarşılıqlı əlaqə şəraitində həyata keçirilən tədris prosesidir. Bu metodların əsas xüsusiyyəti hər bir şagirdin təlim prosesinə aktiv şəkildə cəlb edilməsidir.

İnteraktiv metodların tətbiqi şagirdlər üçün əlverişli təlim mühiti yaradır. Belə mühitdə şagirdlər öz fikirlərini sərbəst ifadə edir, müzakirələrdə iştirak edir və kollektiv fəaliyyətə qoşulurlar. Bu proses əməkdaşlıq bacarıqlarının inkişafına, ünsiyyət mədəniyyətinin formalaşmasına və komanda şəklində işləmək bacarığının yaranmasına kömək edir.

Rus dili dərslərində interaktiv metodlardan müxtəlif formalarda istifadə etmək mümkündür. Bu formalardan biri cütlərlə və kiçik qruplarla işdir. Belə təşkil olunmuş fəaliyyət şagirdlərə tapşırıqları birlikdə müzakirə etməyə, fikir mübadiləsi aparmağa və birgə qərar qəbul etməyə imkan yaradır. Qrup işi

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 90-93
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 90-93
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

ünsiyyət bacarıqlarını inkişaf etdirir, şagirdləri bir-birini dinləməyə və fikirlərini əsaslandırmağa öyrədir.

Didaktik oyunlar da idrak fəallığının artırılmasında mühüm rol oynayır. Oyun forması kiçik məktəblilərin yaş xüsusiyyətlərinə uyğun olduğuna görə təlim prosesini daha maraqlı və cəlbedici edir. Məsələn, orfoqrafiya qaydalarının öyrədilməsi zamanı sözlərin qurulması, səhvlərin tapılması və ya mətnin bərpası kimi oyun tapşırıqları tətbiq edilə bilər. Bu cür fəaliyyət şagirdlərin diqqətini və marağını artırır, öyrənilən materialın daha yaxşı mənimsənilməsinə kömək edir.

İnteraktiv metodlardan biri də beyin həmləsidir. Bu metod müəyyən problem üzrə kollektiv şəkildə ideyaların irəli sürülməsini nəzərdə tutur. Rus dili dərslərində bu metoddan, məsələn, eyni köklü sözlərin tapılması, nitq hissələrinin xüsusiyyətlərinin müəyyən edilməsi və ya cümlələrin qurulması zamanı istifadə etmək mümkündür. Beyin həmləsi şagirdlərin yaradıcı təfəkkürünün inkişafına kömək edir.

Problemli tapşırıqlar və müzakirələr də interaktiv təlimin mühüm elementlərindəndir. Müəllim şagirdlərə müəyyən dil vəziyyəti və ya analiz tələb edən mətn təqdim edə bilər. Şagirdlər bu problemi birlikdə müzakirə edərək nəticələr çıxarır və öz fikirlərini əsaslandırırlar.

Müasir rəqəmsal texnologiyalar da interaktiv metodların tətbiqi imkanlarını genişləndirir. İnteraktiv təqdimatlar, elektron tapşırıqlar və təhsil platformaları dərs prosesini daha maraqlı edir. Bu vasitələr şagirdlərin müstəqil fəaliyyətini və idrak fəallığını artırır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, interaktiv metodların effektivliyi müəllimin pedaqoji bacarığından da asılıdır. Müəllim dərsi düzgün təşkil etməli, hər bir şagirdin fəaliyyətə cəlb olunmasına şərait yaratmalı və onların marağını daim dəstəkləməlidir.

Beləliklə, interaktiv təlim metodları rus dili dərslərində kiçik məktəblilərin idrak fəallığının inkişafında mühüm rol oynayır.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Bu metodlar şagirdlərin dərs prosesində fəal iştirakını təmin edir, onların təfəkkürünü və ünsiyyət bacarıqlarını inkişaf etdirir.

İnteraktiv metodların tətbiqi dərsləri daha maraqlı və səmərəli edir, şagirdlərdə öyrənməyə qarşı davamlı maraq formalaşdırır və tədris materialının daha keyfiyyətli mənimsənilməsinə kömək edir.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 94-97
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 94-97
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Turan Muxtarova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-6224-8165
turanmukhtarova@gmail.com

# Rəsmi-işgüzar üslub və onun funksional üslublar sistemində yeri

***Açar sözlər:*** *rəsmi-işgüzar üslub, funksional üslublar, normativlik, standartlaşma, sənəd dili, kommunikasiya*

***Keywords:*** *formal-business style, functional styles, normativity, standardization, document language, communication*

Dil cəmiyyətin əsas ünsiyyət vasitəsi olmaqla yanaşı, müxtəlif fəaliyyət sahələrində fərqli formalarda təzahür edir. Bu müxtəliflik funksional üslubların formalaşmasına səbəb olur.

Azərbaycan ədəbi dilinin funksional üslublarına aşağıdakı üslublar daxildir; bədii üslub, elmi üslub, publisistik üslub, məişət üslubu, rəsmi-işgüzar üslub. Bu üslubların hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Tarixi inkişaf prosesində müəyyənləşmiş həmin xüsusiyyətlər bir üslubu başqa üslubdan fərqləndirir. Məsələn, bədii üslub obrazlılığı, bədii ifadə vasitələrinin bolluğu ilə seçildiyi kimi, elmi üslubun da əsas səciyyəvi xüsusiyyəti terminlərdən istifadəyə üstünlük verilməsidir. Bu üslublar bir-birindən nə qədər fərqlənsə də, onların hamısı ədəbi dilin üslublarıdır. Buna görə də bu üslubların hər biri ədəbi dilimizin fonetik, leksik və qrammatik normalarına tabe olur. Funksional üslublar sistemi daxilində rəsmi-işgüzar üslub xüsusi yer tutur və dövlət idarəçiliyi, hüquq, inzibati münasibətlər və rəsmi yazışmalar sahəsində geniş istifadə olunur.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Rəsmi-işgüzar üslubun əsas məqsədi informasiyanın dəqiq, birmənalı və hüquqi cəhətdən düzgün şəkildə çatdırılmasıdır. Bu baxımdan onun struktur və leksik xüsusiyyətləri digər üslublardan əhəmiyyətli dərəcədə fərqlənir.

Rəsmi-işgüzar üslub dilin funksional üslublar sistemində cəmiyyətin idarə olunması, hüquqi tənzimlənməsi və diplomatik münasibətlərin həyata keçirilməsini təmin edir. Bu üslub ədəbi dilin normalarına ciddi riayət edilməsi ilə fərqlənir və elmi-işgüzar kommunikasiyada fundamental rol oynayır.

Rəsmi-işgüzar üslub rəsmi və işgüzar sənədlərin dilidir. Bu üslubda fikirlər müəyyən standart qəliblərdə və qısa, yığcam formada ifadə olunur ki, bu da onun əsas xüsusiyyətidir. Rəsmi-işgüzar üslub hamı üçün eyni qaydada tətbiq edilir və standart xarakter daşıyır. Burada obrazlı ifadələrə və fərdi nitq xüsusiyyətlərinə yer verilmir.

Milli rəsmi-işgüzar üslub digər funksional üslublarla müqayisədə daha gec formalaşmışdır. Onun lüğət tərkibi məhdud, sintaksisi isə sadə və konkret olur. Bu üslubda bəzi köhnəlmiş sözlər və arxaik sintaktik formalar uzun müddət qorunub saxlanır.

Rəsmi-işgüzar üslub dövlət, hüquq və inzibati münasibətlər sahəsində işlədilən dil formasıdır. Bu üslub əsasən aşağıdakı kommunikativ məqsədlərə xidmət edir:

- Hüquqi münasibətlərin tənzimlənməsi;
- Rəsmi məlumatların ötürülməsi;
- İdarəetmə proseslərinin həyata keçirilməsi;
- Sənədləşdirmə və normativ aktların hazırlanması.

Bu üslubda yazılan mətnlərə qanunlar, fərmanlar, qərarlar, ərizələr, müqavilələr, aktlar və rəsmi məktublar daxildir.

Dövlət, hökumət təşkilatlarının tərtib etdiyi və rəsmi qaydada təsdiq olunan sənədlər (məsələn, Prezident fərmanları, hökumət sərəncamları, nazirlərin əmrləri, Konstitusiya və s.)

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

rəsmi sənədlər sayılır. Rəsmi sənədlərin əsas xüsusiyyətləri bunlardır:

- dilin maksimum mükəmməlliyi;
- fikrin tam aydınlığı;
- fikrin (sözlərin) birmənalılığı;
- fikrin hüquqi cəhətdən əsaslılığı (əsaslandırılması);
- dil yığcamlığı.

Rəsmi-işgüzar üslubun lüğət tərkibi nə qədər yığcam, sintaksisi nə qədər məhduddursa, normalılığı o qədər möhkəmdir. Tarixən formalaşmış sabit qəliblər mövcuddur və bu üslub həmin çərçivədən kənara çıxmır. Bu səbəbdən də rəsmi-işgüzar üslubda arxaik sözlər və köhnə sintaktik konstruksiyalar uzun müddət qorunub saxlanır. Rəsmi sənədlərin dili ilə işgüzar sənədlərin dili bir-birindən fərqlənir.

1) Rəsmi sənədlərin dili — dövlət və ya hökumət qurumları tərəfindən hazırlanıb rəsmi qaydada (imza, möhür və s. ilə) təsdiqlənən sənədləri əhatə edir.

Rəsmi sənədlərə Konstitusiya, qanunlar, qərarlar, fərmanlar, sərəncamlar və nazirlərin əmrləri daxildir. Bu sənədlər mütəxəssislər tərəfindən hazırlanır, mühüm hüquqi məzmun daşıyır və eyni zamanda tarixi əhəmiyyətə malik olur. Onlarda dilin dəqiqliyi, aydınlıq, birmənalılıq və hüquqi əsaslılıq əsas götürülür, yığcamlıq isə başlıca şərt sayılır.

2) İşgüzar sənədlərin dili — xüsusi dövlət əhəmiyyəti olmayan, konkret məsələlərlə bağlı tərtib edilən sənədləri əhatə edir.

Bu növə ərizə, tərcümeyi-hal, izahat, elan, bildiriş, reklam, anons, afişa, arayış, protokol, rəy, teleqram, annotasiya və akt kimi sənədlər daxildir. İşgüzar sənədlər, adətən, rəsmi sənədlərdən daha qısa olur və burada məlumatın konkret və aydın verilməsi, həmçinin, imla səhvlərinin olmaması əsas meyar sayılır.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Bundan əlavə, işgüzar sənədlərin çoxu hazır formalar əsasında tərtib edilir və lazım olan məlumatlar həmin formaya daxil edilir. Bu isə artıq sözlərin işlədilməsinin qarşısını alır, eləcə də imla və cümlə quruluşu səhvlərini minimuma endirir.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 98-101
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 98-101
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Elnurə Səfərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
seferovaelnure@mail.ru
**Günel Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0001-6916-7955
memmedovagunel564@gmail.com

## “Ekoloji durumun xəstəliklərinin qarşısının alınması” mövzusunda layihə

***Açar sözlər:*** *ekoloji, xəstəlik, karies, diabet, allergiya, layihə*
***Keywords:*** *ecology, disease, caries, diabetes, allergy, project*

Problem: Ekoloji durumun xəstəlikləri və onların qarşısının alınması. Mövzunun aktuallığı: Ekoloji tarazlığın pozulması nəticəsində bir sıra ekologiya ilə bağlı xəstəliklər yaranmış və əhali arasında geniş yayılmışdır. Onların səbəb və əlamətləri, onlardan qorunma yolları elmi-metodik, tibbi ədəbiyyatlarda tam araşdırılmamışdır. Məqsəd: Ekoloji durumun xəstəlikləri və onların qarşısının alınması tədbirləri baxımından əhalinin, xüsusilə gənc nəslin maarifləndirilməsi. Gözləntilər: Şagirdlər ekoloji durumun xəstəliklərinə dair informasiya alır, xəstəliklərin səbəb və əlamətlərini müəyyən edir, ekoloji durumun təsir etdiyi xəstəliklərin qarşısını alan tədbirləri müəyyən edir.

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Layihənin planı: Ekoloji durumun təsir etdiyi: 1.Karies xəstəliyinin səbəbləri, əlamətləri və qarşısının alınması tədbirləri; 2.Diabet (şəkərli) xəstəliyinin səbəbləri, əlamətləri və qarşısının alınması tədbirləri; 3.Allergiyalar. Allergiya xəstəliyinin səbəbləri, əlamətləri və qarşısının alınması tədbirləri.

Karies xəstəliyinin yaranma səbəbləri, əlamətləri və qarşısının alınması tədbirləri: Karies - dişin sümük toxumasının müxtəlif mikroblar tərəfindən zədələnməsidir. Karies diş ərpi olan yerdə (dişlərin arasında, diş səthi yuvacıqlarında) inkişaf edir. Kariesin yaranma səbəbləri aşağıdakılardır: -Ağız boşluğunun mikroblarla çirklənməsi; -Ağız şirəsi suyunun azalması və tərkibinin dəyişməsi; -Dişin sümük toxumasının möhkəmliyinin azalması. Kariyes xəstəliyinin qarşısının alınması tədbirləri: Ağız boşluğunun gigiyenasına əməl edin: -Dişləri gündə iki dəfə olmaqla fırçalamaq; -İldə iki dəfədən az olmayaraq stomatoloqun müayinəsindən keçmək; -Konfet, mürəbbə, peçenye və s. bu kimi məhsulların qəbulunu azaltmaq; -Kalsiumla zəngin olan süd və süd məhsullarından istifadə etmək.

Diabet (şəkərli) xəstəliyinin yaranma səbəbləri, əlamətləri və qarşısının alınması tədbirləri: Diabet (şəkərli) xəstəliyi insulin ifrazının, insulin təsirinin və ya hər ikisinin pozulması nəticəsində meydana çıxan hiperqlisemiya (qan şəkərinin yüksəlməsi) ilə gedən xroniki metabolik xəstəlikdir.

Şəkərli diabet xəstəliyinin 3 tipi var: I tip diabet və ya insulindən asılı olan diabet: Əsasən 5-20 yaşlar arasında rast gəlnir. 1-ci tip diabetdə hər hansı bir səbəbdən mədəaltı vəzin insulin ifraz edən hüceyrələri məhv olur. Başqa sözlə desək, mədəaltı vəzi ya çox az insulin ifraz edir, ya da heç ifraz etmir. II tip diabet və ya insulindən asılı olmayan diabet: Əsasən, 35 yaşından yuxarı, çox yağlı yeyən, artıq çəkili, az hərəkət edən insanlarda və əsasən, ailəsində şəkər xəstəliyi olanlarda rast

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

gəlinir. III tip diabet ilk dəfə hamiləlik zamanı hormon dəyişikliklərinə bağlı meydana gələn diabetdir. Bu tip diabet əsasən, hamiləliyin 2-ci yarısından meydana çıxır və hamiləlikdən sonra qanda şəkər normallaşır. Bu cür xəstələrin sonradan 2-ci tip diabetə tutulma riski 40-60 %-dir. Diabet (şəkərli) xəstəliyinin inkişaf etmə səbəbləri:

- Mədəaltı vəzinin insulin hazırlayan hüceyrələrini məhv edən virus infeksiyaları; irsi faktor; piylənmə; stres.

Diabet (şəkərli) xəstəliyinin əlamətləri:

- Susuzluq; yorğunluq; arıqlamaq.

Diabet (şəkərli) xəstəliyinin qarşısının alınması tədbirləri: -Yağlı və qat-qat xəmirdən hazırlanmış un məlumatları, şirniyyatları qida rasionunda azaltmaqla; -Meyvə və tərəvəzləri, ət, toyuq, balıq məhsullarını qida rasionunda artırmaqla; -Zəncəfil, itburnu, darçın, zeytun yarpağı, çörəkotu və s. təbii bitkilərdən istifadə etməklə; -Artıq çəkidən xilas olmaqla; -Hər gün ən azı 30 dəqiqə idman və gəzinti ilə məşğul olmaqla; -Stress, qorxu, həyəcandan uzaq olmaqla.

Allergiyalar. Allergiya xəstəliyinin yaranma səbəbləri, əlamətləri və qarşısının alınması tədbirləri. Allergiya immun sisteminin, adətən, zərərsiz maddələrə göstərdiyi kəskin reaksiyadır. O, ciddiliyindən asılı olaraq bədənin müxtəlif yerlərində yarana, bir neçə gündən bir neçə saata qədər davam edərək müşahidə oluna bilər. Allergiyaya səbəb allergen adlı maddələrdir. Allergik xəstəliklərə pollinoz, allergik rinit, qida allergiyası və dərman allergiyası aiddir. Pollinoz bitki tozu allergiyası deməkdir. Buna fəsli xəstəlik də deyilir. Pollinozun əlamətləri ilin müxtəlif fəsillərində gözlərin ətrafının, burnun qaşınması, çoxlu sayda asqırma, burnun tutulması kimi özünü göstərir. Bu xəstəlik əsasən, yaz, yay və payız aylarında üzə çıxır, qışda isə yox olur. Allergik xəstəliklərin digər növü il boyu davam edən allergik rinitdir. Onun törədiciləri məişət allergenləri - ev tozu, kitab tozu, məişət gənəcikləri və

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

digərləridir. Əsasən üzün, burunun qaşınması, asqırma, burun tutulması və axması əlamətləri ilə müşayiət olunur. Qida allergiyası zamanı müxtəlif qida məhsullarından bədəndə səpmə, qızarma, şişmə, boğulma halları baş verir. Allergiyanın, demək olar ki, istənilən qida növünə qarşı yarana biləcəyinə baxmayaraq, ən çox yayılmış qida allergenləri-süd, yumurta, balıq, molyusklar, soya, buğda, qoz, fındıq, pomidor, çiyələk, sitrus meyvələri və xüsusən də yerfındığıdır.

Layihə hazırlamaq müxtəlif mövzuları müstəqil tədqiq etmək, araşdırmaqdır. Layihələr şagirdlərə imkan verir ki, onlar müəllimlərin rəhbərliyi ilə təlim prosesində fəal iştirak edə bilsinlər. Şagirdlər başqa ədəbiyyatlardan istifadə etməyi öyrənirlər, hadisələrin mahiyyətini daha dərindən qavrayırlar. Həmçinin, şagirdlər öz fikirlərini azad ifadə edir və onlar müstəqil düşüncəli şəxsiyyət kimi formalaşırlar.

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 102-108
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 102-108
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

**Tural Əhədov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Coğrafiya İnstitutu
doktorant
https://orcid.org/0009-0001-6277-7136
ehedov-tural@mail.ru

# Lənkəran iqtisadi rayonunun dağ-meşə torpaqlarının morfogenetik xüsusiyyətləri və su-mühafizə funksiyaları

***Açar sözlər***: *dağ meşə torpaqları, morfogenetik göstəricilər, su-mühafizə funksiyaları, eroziya, yamac meyilliyi*
***Keywords:*** *mountain-forest soils, morphogenetic indicators, water-protective functions, erosion, slope gradient*

Tədqiqat Lənkəran iqtisadi rayonunun dağ-meşə torpaqlarının morfogenetik xüsusiyyətləri ilə su-mühafizə funksiyaları arasındakı əlaqəni müəyyən etməyə yönəlmişdir. Nəticələr göstərir ki, torpaq horizontlarının qalınlığı, humusun miqdarı, mineral tərkib və struktur torpağın su tutma qabiliyyətinə və eroziyaya davamlılığına birbaşa təsir edir. Yamacın meyilliyi, ekspozisiyası, bitki örtüyü və torpağın rütubəti kimi relyef amilləri isə səth axımını və deqradasiyanı tənzimləyir. Qəhvəyi meşə torpaqları sarı meşə torpaqlarına nisbətən daha yüksək sukeçiriciliyə malikdir. Sıx meşə örtüyü torpağı qoruyur, strukturunu yaxşılaşdırır və üzvi maddə toplanmasını artırmaqla eroziyanı azaldır. Torpaq-bitki qarşılıqlı təsiri dağ landşaftlarının sabitliyini və hidroloji tarazlığı təmin edir.

Dağ meşə torpaqları ekosistem davamlılığını təmin edən və ətraf mühitin mühafizəsində həlledici rol oynayan mürəkkəb təbii sərvətlərdir. Bu torpaqlar təkcə bitki inkişafı və

biomüxtəlifliyin qorunması üçün yaşayış mühiti təmin etmir, həm də hidroloji dövrün tarazlığının qorunması, torpaq eroziyasının qarşısının alınması və su tutma qabiliyyətinin tənzimlənməsi kimi həyati funksiyaları yerinə yetirir (Li və başq., 2021). Xüsusilə dik yamaclı dağlıq ərazilərdə torpaqların morfogenetik quruluşu və ekoloji vəziyyəti onların su-mühafizə funksiyalarının intensivliyinə birbaşa təsir göstərir (Barabanov, 2025).

Lənkəran–Astara iqtisadi rayonu Azərbaycanın cənub-şərq hissəsində yerləşir və rütubətli subtropik iqlim ilə xarakterizə olunur. Rayonun mürəkkəb geomorfoloji quruluşu və yüksək bioloji müxtəlifliyi dağ meşə torpaqlarının struktur və funksional xüsusiyyətlərini formalaşdıran əsas amillər sırasındadır (Hu və başq., 2021). Nisbətən yüksək və ilboyu bərabər paylanmış illik yağıntı, torpaq horizontlarının differensiasiyası ilə birlikdə, torpaqların su tutma qabiliyyətini və eroziyaya qarşı müqavimətini müəyyən edir.

Torpaqların morfogenetik göstəriciləri – horizont qalınlığı, struktur xüsusiyyətləri və humus-mineral tərkibi – su keçiriciliyini və eroziyaya qarşı müqaviməti idarə edən əsas amillər kimi çıxış edir. Humusla zəngin torpaqlar yağıntıları daha yaxşı udmaq və saxlamaq qabiliyyətinə malikdir və bununla da eroziv proseslərə qarşı müqaviməti artırır. Bundan əlavə, yamac meyilliyi, bitki örtüyünün sıxlığı və torpağın nəmliyi su-mühafizə funksiyalarını gücləndirən əsas ekoloji parametrlər hesab olunur. Bitki kökləri torpağı sabitləşdirir və səth axınının təsirini azaldır, daha yüksək rütubət səviyyələri isə torpağın struktur elastikliyini artırır və eroziyaya qarşı müqaviməti yaxşılaşdırır (Ye və başq., 2020).

Tədqiqat Lənkəran–Astara iqtisadi rayonunun dağ-meşə ərazilərində aparılmışdır. Ərazi müxtəlif meyilli yamaclardan ibarət heterojen relyefə malikdir. Rütubətli subtropik iqlim bol yağıntı ilə xarakterizə olunur. Sıx meşə örtüyü torpağın hidroloji

*Elm və Təhsilin Əsasları* XIX Beynəlxalq Elmi Konfrans / 05 aprel 2026 / 102-108
*Fundamentals of Science and Education* XIX International Scientific Conference / 05 april 2026 / 102-108
https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

rejiminin tənzimlənməsində mühüm rol oynayır. Torpaq nümunələri çöl şəraitində A (humus), B (alt torpaq) və C (ana material) horizontlarından toplanmışdır. Nümunə götürmə FAO torpaq təsviri standartlarına və Azərbaycan Respublikası tərəfindən təsdiq edilmiş metodologiyalara uyğun olaraq həyata keçirilmişdir (FAO, 2020; Əliyev, 2019). Nümunələrdə aşağıdakı göstəricilər təyin edilmişdir: horizont qalınlığı, humus (Kjeldahl), mineral tərkib, struktur, infiltrasiya, su tutma qabiliyyəti; eroziya indeksi, torpaq itkisi; yamac meyilliyi, bitki sıxlığı, torpaq nəmliyi.

Göstəricilər arası əlaqələr Pearson korrelyasiyası və reqressiya modelləri ilə qiymətləndirilmişdir.

*Müzakirə və nəticələr:* Tədqiqatın nəticələri göstərir ki, Lerik və Lənkəran rayonlarının dağ meşə torpaqlarında su keçiriciliyi və eroziya xüsusiyyətləri torpaqların morfogenetik quruluşu və ekoloji şəraiti ilə sıx əlaqəlidir. Torpağın struktur tipi, humus horizontunun qalınlığı, yamac meyilliyi, rütubət rejimi və bitki sıxlığı su-mühafizə funksiyalarının səviyyəsini müəyyən edən əsas amillərdir. Bu amillərin birgə təsiri müxtəlif torpaq tiplərində su infiltrasiya sürətlərində və eroziya proseslərinin intensivliyində dəyişkənliklərə səbəb olur.

**Cədvəl 1**.
Lerik və Lənkəran rayonlarının dağ meşə torpaqlarının morfogenetik və hidroloji-eroziya xüsusiyyətləri

| **Rayon** | **Torpaq tipi** | **Yamac meyilliyi (%)** | **Bitki örtüyü (%)** | **Orta infiltrasiya sürəti (mm/saat)** | **Eroziya indeksi** |
|---|---|---|---|---|---|
| Lerik | Qəhvəyi | 15 | 75 | 12.5 | 0.25 |
| Lerik | Sarı | 15 | 60 | 10.2 | 0.30 |
| Lənkəran | Qəhvəyi | 20 | 70 | 12.0 | 0.28 |
| Lənkəran | Sarı | 20 | 55 | 9.8 | 0.33 |

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

Torpaq horizontlarının qalınlığı və humus tərkibinin su keçiriciliyinə əhəmiyyətli təsir göstərdiyi müəyyən edilmişdir. Çöl ölçmələri göstərir ki, qəhvəyi torpaqlar sarı torpaqlarla müqayisədə daha yüksək su infiltrasiya qabiliyyəti nümayiş etdirir. Lerik rayonunda qəhvəyi torpaqlarda orta infiltrasiya sürəti 12.5 mm/saat olmuş, sarı torpaqlarda isə bu göstərici 10.2 mm/saat təşkil etmişdir. Bu fərq qəhvəyi torpaqlarda daha yüksək humus tərkibi, incə dənəvər strukturun üstünlük təşkil etməsi və daha yüksək məsaməlilik ilə izah olunur.

**Cədvəl 2**.

Tədqiqat sahələrində torpaqların morfogenetik göstəriciləri

| **Rayon** | **Torpaq tipi** | **Humus qalınlığı (sm)** | **Humus tərkibi (%)** | **Üstün struktur tipi** | **Məsaməlilik (%)** |
|---|---|---|---|---|---|
| Lerik | Qəhvəyi | 25–30 | 4.8 | Dənəvər | 55 |
| Lerik | Sarı | 15–20 | 3.2 | Xırdatopaqlı | 48 |
| Lənkəran | Qəhvəyi | 20–25 | 4.5 | Dənəvər | 53 |
| Lənkəran | Sarı | 12–18 | 2.9 | Xırdatopaqlı | 45 |

Bitki örtüyünün sıxlığı həm torpaq səthinin fiziki qorunmasına, həm də dağ yamaclarının hidroloji dinamikasına təsir göstərərək torpaq eroziyasının azaldılmasında həlledici rol oynayır. Həm Lerik, həm də Lənkəran rayonlarında qəhvəyi meşə torpaqları kimi sıx meşə örtüyünə malik ərazilər əhəmiyyətli dərəcədə aşağı eroziya indeksləri nümayiş etdirir. Bu, əsasən, yağışın birbaşa təsirini azaldan örtük intervensiyasının və torpaq aqreqatlarını sabitləşdirən,

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

məsaməliliyi artıran və yağıntının daha dərin torpaq qatlarına infiltrasiyasını asanlaşdıran geniş kök sistemlərinin birləşmiş təsirləri ilə bağlıdır.

Yamac meyilliyi dağ meşə torpaqlarında eroziya proseslərinə təsir edən əsas təbii amillərdən biridir. Çöl müşahidələri və hesablamalar göstərir ki, yamacın dikliyi artdıqca torpaq səthində səth axınının intensivliyi yüksəlir və bununla da torpaq hissəciklərinin ayrılma ehtimalı artır. Tədqiqat sahələrindən əldə edilən nəticələr göstərir ki, daha dik yamaclarda yerləşən torpaq sahələri əhəmiyyətli dərəcədə yüksək eroziya indeksləri nümayiş etdirir. Sarı torpaqlarda daha yüksək eroziya indeksi onların nisbətən zəif struktur xüsusiyyətləri, daha incə humus horizontu və ellüviasiya proseslərinin daha yüksək intensivliyi ilə əlaqələndirilir.

**Cədvəl 3.**
Tədqiqat sahələrində ekoloji amillər və eroziya göstəriciləri arasında əlaqə

| **Rayon** | **Torpaq tipi** | **Rütubət (%)** | **Kök sıxlığı** | **Səth axını potensialı** | **Eroziya riski** |
|---|---|---|---|---|---|
| Lerik | Qəhvəyi | 65 | Yüksək | Aşağı | Aşağı |
| Lerik | Sarı | 70 | Orta | Orta | Orta |
| Lənkəran | Qəhvəyi | 68 | Yüksək | Aşağı | Aşağı–Orta |
| Lənkəran | Sarı | 72 | Aşağı | Yüksək | Yüksək |

Rütubət səviyyəsi dağ meşə torpaqlarının fiziki-mexaniki xüsusiyyətlərini və hidroloji davranışını müəyyən edən əsas ekoloji amillərdən biridir. Həddindən artıq torpaq nəmliyi torpaq aqreqatlarının dayanıqlığını zəiflədir, torpaq məsamələrinin qismən su ilə doymasına səbəb olur və nəticədə suyun torpaq profilinə infiltrasiya sürətini azaldır. Tədqiqat nəticələri göstərdi

https://doi.org/10.36719/2789-6919/XIX/BK/ET/2026

ki, yüksək rütubət şəraiti sarı torpaqlarda su keçiriciliyini azaldır. Lerik rayonunda sarı torpaqlarda qeydə alınan 70% rütubət səviyyəsi torpaq məsamələrinin doymasına və infiltrasiya proseslərinin yavaşlamasına səbəb olmuş, səth axını güclənmişdir.

